www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 9 sentyabr 2016-cı il Şənbə № 200 (6521) Qiyməti 60 qəpik

**Xəbər**

## Bakıda iki nəfər su quyusunda boğularaq öldü

yazısı səh.15-də

**Gündəm**

### Meriya müxalifətin mitinq müraciətinə cavab vermir



11 sentyabr mitinqinə 2 gün qalsa da, Milli Şuradan BŞBPİ-yə çağırılan olmayıb; Müsavat başqanından isə qanunsuz aksiyalarla bağlı soruşulub

yazısı səh.4-də

### "Hakimiyyətin referendumu Qərblə razılaşdırması iddiaları ciddidir"

yazısı səh.8-də

### Əli Kərimlinin sabiq müşavirindən ittiham dolu açıqlamalar

yazısı səh.6-da

### ABŞ seçkilərinə Moskva təhdidi - Rusiya "öz namizədi"nin qələbəsinə çalışır

yazısı səh.8-də

### Azərbaycan daha bir NATO ölkəsi ilə həmsərhəd olur

yazısı səh.9-da

### Xarici şirkətlər ölkəni niyə tərk edir?

yazısı səh.14-də

### Azərbaycan siyasətçiləri Rusiyadakı seçki marafonunu dəyərləndirdi

yazısı səh.9-da

### Böyrək xəstələrinin artma səbəbi-içməli su və ...

yazısı səh.14-də

### Bakıda dollar satmayan bank filialları bağlandı

yazısı səh.3-də

### Generalın məhkəmə müəmması

yazısı səh.15-də

### Turistlərin dollar problemi...

yazısı səh.12-də

### Bələdiyyə sədrini öldürənin məhkəməsi yekunlaşır

yazısı səh.15-də

## MTN çetesi onun toruna düşən sabiq rəisi necə güdüb...

# TAĞI ƏHMƏDOVU BİTİRƏN SƏBƏB - "PULLARINI SEÇKİ ƏRƏFƏSİ BANKDAN NİYƏ ÇIXARIR..."

2013-cü ilin prezident seçkisi ərəfəsində bir günün içərisində bir neçə bankdakı pullarını geri çəkmək zorunda qalan "Bakı Metropliteni"nin rəhbəri şübhə altına düşüb; banklara "Tağı Əhmədova pulunu qaytarın" mesajı verilib və izləmə da məhz MTN-ə həvalə olunub...




yazısı səh.7-də

# Ermənistan qarışır... baş nazir getdi

İşğalçı ölkədə baş verən proseslərin arxasındakı məkrli hiylə - Sərkisyan Qarabağ danışıqlarını yubatmaq istəyir?

yazısı səh.4-də



*Siyavuş Novruzov:*

### "Müxalifət hələ bilmir ki, monarxiya nədir, respublika nə..."

yazısı səh.10-da



*Akif Çovdarov:*

### "Danışsam, agentura şəbəkəsi ifşa olunar"

yazısı səh.7-də




### Eldar Sabiroğlunun oğlu məhkəmə zalından həbs edildi- 9 il iş

yazısı səh.2-də



## Prezident şimal bölgəsində oldu

**Prezident İlham Əliyev sentyabrın 8-də şimal bölgəsində səfərdə olub. İ.Əliyev Xaçmaz rayonunda Xudat-Yalama-Zuxuloba avtomobil yolunun açılışını edib. "APA-Economics" xəbər verir ki, dövlət başçısı əvvəlcə yolun tikinti layihəsini əks etdirən stendə baxıb.**

Prezidentə yolun texniki göstəriciləri barədə məlumat verilib. Xudat-Yalama-Zuxuloba avtomobil yolu rayonun 18 yaşayış məntəqəsini birləşdirir. Dövlət başçısı Xudat-Yalama-Zuxuloba avtomobil yolunun açılışından sonra Xudat şəhərinin bir qrup sakini ilə görüşüb. Prezident Xaçmaz rayonuna səfəri çərçivəsində "Yalama" Südlük-Maldarlıq üzrə Damazlıq Dövlət Kənd Təsərrüfatı İstehsalı Müəssisəsinin bazasında yaradılmış Yalama Aqroparkının açılışında iştirak edib.

Sonra prezident Qusarda olub. İlham Əliyev əsaslı şəkildə yenidən qurulan Qusar-İmamqulukənd-Quxuroba avtomobil yolunun açılışında iştirak edib.

APA-nın məlumatına görə, "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov yolun tikintisi layihəsi barədə dövlət başçısına məlumat verib. Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsib.

Bu yolun tikintisi ilə 11 yaşayış məntəqəsinin 12 min nəfər əhalisinin rayon mərkəzinə və Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yoluna rahat və maneəsiz şəkildə gediş-gəlişi təmin olunub.

## Təcili yardıma yalançı zəng edənlərə görə...

**Təcili tibbi yardımın keyfiyyətini artırmaq və bəzi nöqsanları aradan qaldırmaq məqsədilə təcili tibbi yardım stansiyasına zəng edən şəxsin həmin an yerləşdiyi məkanın dəqiq təyin edilməsi sistemi nəzərdə tutulub.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən xəbərə görə, bunun köməyi ilə ünvanın dəqiqləşdirilməsinə sərf olunan vaxta qənaət olunacaq və yalançı çağırışların qarşısı alınacaq. Çağırışın dəqiq ünvanı, adına çağırış verilən şəxs haqqında bütün məlumatlar elektron sistem vasitəsilə dərhal həkimin planşetinə ötürüləcək. Həmin məlumatlar əsasında həkim hətta yolda olarkən xəstə ilə bağlı ətraflı məlumatları əldə edə biləcək. Bu da vaxt itkisinin qarşını almağa və təcili tibbi yardımın keyfiyyətinin yüksəlməsinə imkan verəcək. Yeni naviqasiya sistemi nəzərdə tutulub ki, bu məqsədlə Bakı Telefon Rabitəsi İstehsalat Birliyinə müraciət olunub. Yeni elektron sistem gələcəkdə yaradılması nəzərdə tutulmuş icbari tibbi sığortanın tətbiqi zamanı məlumatların ötürülməsinə şərait yaradacaq. Səhiyyə Nazirliyi tərəfindən hər bir vətəndaş üçün yaradılması nəzərdə tutulan elektron səhiyyə kartında vətəndaşın təcili yardıma nə zaman müraciət etməsi, hansı diaqnozla müalicə alması barəsində məlumatlar toplanacaq. İstənilən tibb müəssisəsinə müraciət etdiyi halda vətəndaşa məxsus kod nömrəsini və ya şəxsiyyət vəsiqəsinin nömrəsini sistemə daxil etməklə həmin şəxsin sağlamlığı barədə məlumat əldə etmək mümkün olacaq.

## Göyçayda 78 yaşlı kişi özünü asıb

**Göyçay rayonunda intihar hadisəsi baş verib. APA-nın yerli bürosunun xəbərinə görə, hadisə rayonun Bığır kəndində qeydə alınıb. Kənd sakini 1938-ci il təvəllüdlü Məmmədov Qəhrəman Əhməd oğlu yaşadığı evin həyətindəki tövlədə özünü kəndirlə asaraq intihar edib.**


"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.


# Rüfət Səfərova 9 il cəza verildi

**Lənkəran Ağır Cinayətlər Məhkəməsində Zərdab Rayon Prokurorluğunun sabiq müstəntiqi Rüfət Səfərovun cinayət işi üzrə məhkəmə prosesi yekunlaşıb.**



Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, R.Səfərov 9 il müddətinə azadlıqdan məhrum edilib. O, məhkəmə zalında həbs olunub.

Qeyd edək ki, R. Səfərov Cinayət Məcəlləsinin 311-ci (rüşvət alma) maddəsi ilə ittiham olunub.

Xatırladaq ki, R. Səfərov Müdafiə Nazirliyinin mətbuat xidmətinin keçmiş rəisi Eldar Sabiroğlunun oğludur.



Sergey Lebedev

## MDB ölkələrinin xüsusi xidmət rəhbərləri Bakıda görüşəcək

**Bakıda sentyabrın 28-də MDB ölkələrinin xüsusi xidmət rəhbərlərinin görüşü keçiriləcək. "RİA Novosti" xəbər verir ki, bu barədə MDB-nin icraçı katibi Sergey Lebedev bildirib.**

Görüşün gündəliyi açıqlanmayıb. S.Lebedev onu da deyib ki, oktyabrın 12-də MDB ölkələri miqrasiya idarələrinin rəhbərləri də Bakıda toplaşacaqlar.

## Kürdlər Əl-Qamışlını paytaxt seçdilər

**Suriyanın şimalında yaşayan kürdlər oktyabr ayında öz ərazilərinin konstitusiyasını qəbul etməyə hazırlaşırlar. Paytaxtın Əl-Qamışlı olacağını bildirirlər.**

Virtualaz.org "Russia Today" agentliyinə istinadən bildirir ki, bu haqda Suriyanın şimalında kürdlərin regional məclisinin başçısı məlumat verib. Onun sözlərinə görə, Türkiyənin əməliyyatlarına baxmayaraq, Suriya kürdləri onların nəzarətində olan şimal-şərq və Suriyanın şimal-qərb rayonlarının birləşdirmək niyyətindədirlər.

Hazırda Suriyanın şimalında Türkiyə hərbi əməliyyatlar keçirir. Türk hərbçilərinin 20 kəndi terrorçulardan təmizləməsi barədə məlumatlar səsləndirilib. Cərablus və Aazaz arasındakı cəbhə nəzarət altındadır.

Türkiyənin keçmiş xarici işlər naziri Yaşar Yakış bildirib ki, türklərin hədəfi kürdlərin Suriyanın şimalında hərəkətinin qarşısını almaqdır.



## Meral Akşener MHP-dən xaric edilib

**Türkiyədə Milliyyətçi Hərəkat Partiyasının (MHP) lideri postuna ən iddialı şəxslərdən biri partiyadan xaric edilib. APA-nın "Hürriyet"ə istinadən verdiyi məlumata görə, MHP Mərkəzi Təftiş Komissiyasının bu gün keçirilən iclasında Meral Akşenerin partiyadan xaric edilməsi haqqında qərar qəbul olunub.**

Xatırladaq ki, M. Akşener daxili işlər naziri və parlament sədrinin müavini vəzifələrində çalışıb.

## Təhsil Nazirliyi məktəbli formaları ilə bağlı əhaliyə müraciət edib

**Təhsil Nazirliyi məktəbli formaları ilə bağlı əhaliyə müraciət edib. APA-nın xəbərinə görə, müraciətdə bildirilib ki, məktəbli formasının satışı və alışı ilə bağlı məcbur etmə tədbirləri ola bilməz.**

"Heç bir məktəb, yerli təhsil idarəetmə qurumları məktəbli formalarının müəyyən olunmuş ticarət şəbəkələrindən alınması ilə bağlı şərt qoya bilməz. Ona görə də valideynlər istədikləri yerdən, istədikləri ticarət şəbəkəsindən məktəbli formasını almaqda sərbəstdirlər", -deyə müraciətdə qeyd olunub.

## Lavrov Moskvada həmsədrlərlə Qarabağı müzakirə etdi

**Rusiyanın xarici işlər naziri Sergey Lavrov ATƏT-in Minsk Qrupunun həmsədrlərini qəbul edib. Rusiya XİN-dən verilən məlumata görə, S.Lavrov həmsədrlərlə Dağlıq Qarabağ münaqişəsinin aktual məsələlərini müzakirə edib.**

Həmsədrlər rusiyalı İqor Popov, amerikalı Ceyms Uorlik və fransalı Pyer Andryö, eləcə də ATƏT-in fəaliyyətdə olan sədrinin Dağlıq Qarabağ üzrə şəxsi nümayəndəsi Anjey Kasprşik nazirlə mayın 16-da Vyanada və iyunun 20-də Sankt-Peterburqda Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə sammitlərdə əldə edilən razılaşmaların reallaşdırılmasının gedişatı daxil olmaqla, Dağlıq Qarabağ məsələsini müzakirə ediblər.

Tərəflər həmçinin Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttindəki cari vəziyyəti müzakirə ediblər.

## "Nə qədər ki, Eldar Mahmudov azadlıqdadır..."

**"Nə qədər ki, Eldar Mahmudov həbs edilməyəcək, Akif Çovdarov və onun başqa şərikləri belə çirkin işlərlə məşğul olmağa davam edəcəklər". Bunu Şərq-Qərb Araşdırmalar Mərkəzinin rəhbəri, keçmiş MTN əməkdaşı Ərəstun Oruclu virtualaz.org saytına açıqlamasında deyib. Onun sözlərinə görə, Akif Çovdarov vəziyyəti suya düşmüş şəxsin saman çöpündən yapışmasına bənzəyir, amma bu ona kömək edən deyil.**

"Bu insan bütün sərhədləri keçir və xüsusi xidmət orqanları zabitinin kodeksini pozur. Görünür ki, o, yalnız öz adından deyil, həm də keçmiş şefi Eldar Mahmudovun adından bu cür çıxışlar edir. Onların ikisi də şantaj etmək üzrə ustaddırlar. Nə qədər ki, Eldar Mahmudov həbs edilməyəcək, Akif Çovdarov və onun başqa şərikləri belə çirkin işlərlə məşğul olmağa davam edəcəklər. Bütün bunlar o vaxt qurtaracaq ki, Eldar Mahmudov layiq olduğu yerdə - dəmir barmaqlıqlar arxasında əyləşəcək".

**Keçmiş MTN-in əməkdaşı, polkovnik-leytenant İlham İsmayıl Akif Çovdarovun ölkənin strateji idarəsində təsadüfi adam olduğunu deyib:** "Bu adam peşəkar deyildi, operativ əməliyyatların keçirilməsində heç bir təcrübəsi yox idi".

**MTN-in sabiq əməkdaşlarının sözlərinə görə, xüsusi xidmət orqanının yüksək rütbəli şəxsi bu cür primitiv şantaj üsullarına əl atmaz:** "Bu bir daha onun MTN sıralarında təsadüfi adam olmasını göstərir. Elə düşünür ki, bununla cəzası yüngülləşər, amma anlamır ki, öz vəziyyətini ağırlaşdırır. Əgər o, agentlərin adlarını açacaqsa, bunun məsuliyyəti də onun üzərinə düşəcək. Təəssüflər olsun ki, Çovdarov kimi təsadüfi adamlar bizim xüsusi xidmət orqanlarımızı məhv edirdilər".

**İ.İsmayıl həmçinin qeyd edib ki, Eldar Mahmudov həbs olunmayana qədər Akif Çovdarov məhkəməni şantaj etməkdə davam edəcək:** "Görünür ki, Eldar Mahmudovun qanqster dəstəsi bu cür üsullarla məsuliyyətdən yayınmağa cəhd edirlər".

## QHT Şurası "Hökumət-Vətəndaş Cəmiyyəti dialoq platforması" təsis edir

**QHT Şurası "Hökumət- Vətəndaş Cəmiyyəti dialoq platforması" təsis yığıncağını keçirəcək.**

Bu barədə müsavat.com-a QHT Şurasından məlumat verildi. Xəbərdə bildirilir ki, Azərbaycan Respublikası Prezidentinin 27 aprel 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nda "Açıq hökumət tərəfdaşlığı" vətəndaş cəmiyyəti platformasının yaradılmasının və fəaliyyətinin dəstəklənməsinin icrası Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasına həvalə edilib.

Bundan irəli gələrək, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası dövlət qurumları və QHT təmsilçilərinin iştirakı ilə "Hökumət- Vətəndaş Cəmiyyəti dialoq platforması"nın 09 sentyabr 2016-cı il tarixində təsis yığıncağını keçirəcək.

Tədbir dövlət qurumlarının, vətəndaş cəmiyyəti institutlarının, mətbuat nümayəndələrinin iştirakı ilə baş tutacaq.

YENİ MÜSAVAT
N 200 (6521) 9 sentyabr 2016

# Bakıda dollar satmayan bank filialları bağlandı

## "Nikoil Bank" ASC: "Palatanın bütün qərarları bizim üçün qanundur"

**Maliyyə Bazarlarına Nəzarət Palatasının (MBNP) Direktorlar Şurasının 6 sentyabr 2016-cı il tarixli qərarına əsasən "Nikoyl Bank" İKB ASC-nin 1, 2, 9 və 13 saylı filiallarının fəaliyyətinə xitam verilərək, bank fəaliyyətinin həyata keçirilməsi üçün verilmiş icazələri ləğv edilib.**

MBNP-dən "APA-Economics"ə verilən məlumata görə, icazələrin ləğv olunmasına səbəb sözügedən filiallarda palata tərəfindən müəyyən edilmiş sağlam kreditləşmə normalarına riayət edilməməsi, kassa əməliyyatlarında qanun pozuntusuna yol verilməsi, habelə uçotun təhrif edilməsidir. Bundan əlavə, yerində baxış zamanı bankın filiallarında olan mübadilə kassalarındakı faktiki qalığın balans məlumatından kənarlaşması müəyyən edilib. Belə ki, Palata tərəfindən aparılmış kassa yoxlamaları zamanı, filialların kassalarında xarici valyutanın mövcud olmasına baxmayaraq, satış əməliyyatı aparılmayıb.

Həmçinin MBNP tərəfindən təsdiq edilmiş "Kredit təşkilatlarında sağlam kreditləşmə və məsuliyyətli borclanma prinsipləri"nin tələbləri gözlənilməyib, borcalanın aylıq borc yükünün onun gəlirinə nisbət əmsalı pozulub. Palata xarici valyuta ilə istehlak kreditlərinin verilməsinin 5 aprel 2016-cı il tarixindən bir ay müddətinə qadağan etməsinə baxmayaraq xarici valyutada istehlak kreditlərinin verilməsi faktları aşkarlanıb. Sadalanan səbəblər qeyri-sağlam və dayanıqlı bank təcrübəsinə zidd olmaqla idarəetmə sistemindəki fundamental problemlərdən qaynaqlanıb.

Bütün bunları nəzərə alaraq və "Banklar haqqında" Qanunun 16.2.7-ci və 48.1.7-ci maddələrini, habelə MBNP-nin nizamnaməsinin 5.3.20-ci bəndini rəhbər tutaraq, "Nikoil Bank" ASC-nin 1, 2, 9 və 13 saylı filiallarının fəaliyyətlərinə xitam verilərək, bank fəaliyyətinin həyata keçirilməsi üçün verilmiş müvafiq olaraq 08.11.2013-cü il tarixli 203/2 saylı, 03.02.2005-ci il tarixli 203/3 saylı, 21.02.2013-cü il tarixli 203/15 saylı, və 17.06.2014-cü il tarixli 203/18 saylı icazələr ləğv edilib.

"Nikoil Bank" ASC Maliyyə Bazarlarına Nəzarət Palatasının (MBNP) Direktorlar Şurasının qərarı ilə bankın 4 filialının fəaliyyətinə xitam verilməsi məsələsinə münasibət bildirib.

**Bankın marketinq departamentinin direktoru Rəşad Cümşüdov "APA-Economics"ə bildirib:** "Biz bu qərara təəssüflənirik. Palatanın bütün qərarları bizim üçün qanundur və onun təxirəsalınmaz dərəcədə yerinə yetirəcəyik. Təbii ki, çətin bir dövrdür. Bu çətin vəziyyətdə bankın sağlamlaşdırılması istiqamətində aktiv iş davam etdirilir. Hazırda biz öz xərclərimizi optimallaşdırırıq, kapitalımızı artırırıq. Bilirsiniz ki, bankın məcmu kapitalının artırılması ilə bağlı səhmdarların qərarı var. Bankın qarşısında qoyulan məcmu kapitala olan, eləcə də digər tələblərin yerinə yetirilməsi istiqamətində işlər görülür. "Nikoil Bank"ın bazarda daha da aktiv fəaliyyəti ilə bağlı yeni strategiya hazırlanır. Onu deyə bilərəm ki, bazarda yeni bir sıçrayış edəcəyik".

# Rusiyadan Türkiyəyə etiraz səsləri gəlməyə başlayıb

## Münasibətlər yenidən pozula bilərmi?

**Rusiya Federasiya Şurasının müdafiə və təhlükəsizlik komitəsi sədrinin müavini Frans Klintseviç "İzvestiya" qəzetinə açıqlamasında Rusiyanın Türkiyənin Suriyanın şimalındakı "Fərat qalxanı" antiterror əməliyyatına dəstək verməyəcəyini deyib. O qeyd edib ki, Rusiya Suriyaya quru əməliyyatı üçün qoşun göndərməyəcək.**



Qeyd edək ki, Rusiyanın son iki gündə Rusiyanın XİN rəsmilərinin də dilindən Türkiyənin Suriyada 15 gündür başlatdığı antiterror əməliyyatlarından narazılıq ifadə edilməyə başlayıb. Rusiyadan verilən açıqlamalarda Türkiyənin Suriyada nəzərdə tutulduğundan irəli getdiyi, Bəşər Əsədə qarşı olan Suriya hərbi müxalif qüvvələri ilə birlikdə hərəkət etdiyi iddia edilir və Moskvanın bundan narazı qaldığı nəzərə çatdırılır.

Diqqətçəkən məqamlardan biri Türkiyə hakimiyyəti ilə ABŞ arasında münasibətlərin son günlər yumşalmasının müşahidə edildiyi vaxtda Moskvadan bu cür açıqlamaların gəlməsidir.

Bəs bu cür açıqlamaların, Rusiyanın narazılıq ifadə etməsinin uzunmüddətli qarşıdurmadan sonra əldə olunan Rusiya-Türkiyə kövrək yaxınlaşmasının yenidən pozulacağını, münasibətlərin gərginləşəcəyini deməyə əsas verirmi?

**Politoloq Ərəstun Oruclu bildirdi ki, Türkiyənin Suriyaya girməsində Rusiya ilə anlaşması olduğu barədə deyilənlər əslində həqiqəti əks etdirmir. Çünki belə bir anlaşma heç vaxt ola bilməz:** "Mən əvvəldən bildirmişdim ki, belə bir anlaşma yoxdur. İki ölkənin başında duran şəxslərin münasibətləri nə qədər yaxın olsa belə, belə bir anlaşma alınmaz. Türkiyə NATO dövlətidir, Türkiyə NATO-ya antiterror koalisiyasının dəstəyi ilə daxil olub. Bu gün də o proses NATO dövlətləri ilə razılaşdırılmış şəkildə həyata keçirilir. Sadəcə olaraq, Rusiya Suriyadan xeyli vaxtdır çıxarılıb. Rusiyanın sonuncu cəhdi İranla birlikdə Suriya prosesində iştirak etsin. Bu da alınmadı. İran öz ərazisində yerləşdirilmiş Rusiya təyyarələrinin çıxarılmasını istədi və buna nail oldu. Beləliklə də artıq Yaxın Şərqdə, Suriyada baş verənlərə Rusiyanın yalnız siyasi-diplomatik aidiyyəti var. Hərbi iştirak isə artıq qeyri-mümkündür. Ona görə də Rusiya indi başlayıb məlum bəyanatları verməyə. Amma mən düşünmürəm ki, bu, Türkiyə ilə münasibətlərin pozulmasına gətirib çıxaracaq".

**Ə.Oruclu qeyd etdi ki, Rusiyaya Türkiyə ilə münasibətləri yenidən pozmaq sərf etmir. Bunu Moskva artıq özü üçün qətiləşdirib:** "Türkiyə iqtisadi partnyor kimi Rusiya üçün vacibdir. Onu itirmək Rusiyanın bugünkü durumunda əlverişli deyil. Rusiyaya Qərbin sanksiyaları arta-arta gedir. Belə bir gedişatda Moskva Türkiyə nəfəsliyindən imtina etməz.

Digər tərəfdən də Türkiyənin Suriyada İŞİD-ə qarşı apardığı əməliyyatlara görə Rusiyanın ciddi bir narazılığı yoxdur. Düzdür, Rusiya Xarici İşlər Nazirliyi ilk vaxtdan bəyanat verdi ki, Türkiyə gərək Suriya hökumətindən icazə alıb bu əməliyyatlara başlayaydı. Amma Rusiya da nəzərə alır ki, bu əməliyyatlar İŞİD terrorçularına qarşıdır. Sadəcə, müəyyən narahatçılığı var ki, Türkiyə bu əməliyyatlarla qırmızı xətti keçə bilər. Bu narahatlığa da əsas görünmür. Türkiyə Suriyanın dərinliyinə qədər getməyəcək".

❑ **Etibar SEYİDAĞA**

# "Bu qədər pul hardandır?"



**Samir SARI**

**Bir də görürdün, atası babat vəzifədə işləyən tələbə yoldaşlarımızdan biri küçədə şütüyən qara "QAZ-24"ün dalınca həsrətlə baxa-baxa deyir: "Maşın deyəndə budu ey. Ceyran kimidir". Biz də nəsə deyirdik, o da əlavə edirdi ki, papasının pulu var, istəsə, bu gün alar, intəhası...**

Söhbətin bu "intəhası"dan sonrakı hissəsi maraqlıydı və beləydi: "İntəhası, hökumət papamı dolaşdırar, tutub deyər, bu qədər pul səndə hardandır. Abaxeyis soyar, buraxar, keqebe tutar, buraxmaz".

O vaxtlar "QAZ-24" adlanan "Volqa" markalı avtomobillərin qiyməti 15 min rubl idi. İndi içində sement, badımcan, soğan daşındığına baxmayın, o vaxt o maşını rayon rəhbərləri, böyük trestlərin rəisləri, bir də əmək qabaqcılları minirdilər. Hansısa ortabab, amma sosialist əmlakını dağıtmaq hesabına pullanmış müdir özünə "24" alsydı, 24 saatın tamamında onu lazımi yerə çağırar, deyərdilər, vətəndaş Filankəsov, bu qədər pul səndə hardandır.

O zamanlar hər rayonda el arasında adına "Abaxeyis" deyilən, rusca yazılışı abbreviatura ilə OBXSS olan, tərcümədə Sosialist Əmlakını Dağıdanlarla Mübarizə (SƏDM) Şöbəsi adlanan milis şöbələri vardı, qudurub "QAZ-24", "Jiquli" alanlara, ev tikdirənlərə belə suallar verirdilər, cavabla yanaşı, oğurlanmış sosialist əmlakından öz paylarını alırdılar.

Prinsipcə, SƏDM işçiləri ilə dil tapmaq olurdu, mərdimazar adam deyildilər, amma o da bir yerə qədər idi. Əgər bir adam sosialist əmlakını külli miqdarda dağıdıbsa, ona ən ürəyiyumşaq SƏDM rəisi də kömək edə bilməzdi və adamın tifağını dağıdardılar, gedərdi ağzıbirə. O vədələr də tamahkar adamlar vardı və vaxtaşırı ilişirdilər.

İlişməyin, "dolaşdırılmağın" qorxusundan pullu adamlar onu üzə çıxara bilmir, "bu qədər pul səndə hardandır" sualından qorxurdular.

Yadımdadır, sovet dövlətinin son illərində Pavlov adlı baş nazir vardı, bir gün qərar verdi ki, 50 və 100 manatlıq əskinaslar dəyişdirilməlidir. Pavlov ona görə belə etdi ki, milyonlarla sovet məmuru (və digər pullu adamlar) hərəyə bir neçə çamadan 50-lik, 100-lük yığıb atmışdılar evə, milyardlarla rubl dövriyyədən çıxarmışdılar.

Bu sərəncam veriləndən sonra ölkədə bir çaxnaşma, bir ajiotaj başladı ki, tarixdə analoqu olmayıb. Heç bir pullu adam 2 min rubldan artıq rubl dəyişə bilməzdi, əllərində isə azı 20 min, çoxu 2 milyon 50-lik, 100-lük əskinazlardan ibarət pul kütləsi vardı. "Bu qədər pul səndə hardandır" sualı o pulluları vadar elədi ki, rayon yerlərində yaşayan kasıb qohum-əqrəbalarına, dost-tanışlarına müraciət eləsinlər, çamadanla pulu gətirib onların arasında 2000-2000 bölüb, sonra da təzə əskinaslarla yığıb aparsınlar.

"Demokrasidə çarə tükənməz" deyiblər, sovet məmurları, ali məktəb müəllimləri öz böyük paralarını bu yolla xilas etdilər. Bəlkə də ifşa olunmağın qorxusundan pulunu batıranlar da oldu. Bu da o adamlar ola bilərdi ki, heç vaxt heç bir qohumuna 5 manat verib əl tutmayıb, həmişə ağlayb, 1991-ci ildə də üzü gəlməyib ki, "mənim milyonlarımı öz adınızdan dəyişin" desin.

Sonralar, gərək ki, elə 1991-ci ildə SƏDM şöbələrini ləğv elədilər və daha sosialist əmlakını, eləcə də xalq malını dağıdanlara ""bu qədər pul səndə hardandır" sualı verən olmadı.

İş gəlib o yerə çıxdı ki, MTN generalı metropoliten rəisindən 3 milyon tələb etdi və aldı. İndi bəziləri media vasitəsilə rəisə "bu qədər pul səndə hardandır" sualı verir və onun "40 illik maaşımdır" cavabına qane olmur.

Eyni sualı generala versək, o da deyə bilər ki, 30 illik məvacibimdir. Amma hamımız bilirik ki, bu qədər pul maaşla başa gələn məbləğlər deyil. Hamı da Rəsul Quliyev deyil ki, 1995-ci ildə eyni sualla qarşılaşanda "ixtiralarımın qonorarıdır" desin və hamını borclu çıxarsın.

İndi SƏDM şöbələri yoxdursa da, amma korrupsiyaya qarşı mübarizə idarələri var. Belə görünür ki, onlar korrupsionerlərə "bu qədər pul sizdə hardandır" sualı verə bilmirlər. Hərgah versələr, korrupsionerlər onları işdən çıxartdırar, özlərini də tutarlar.

**Ermənistanın baş naziri Ovik Abramyan dünən istefa verib. Bu barədə o, Ermənistan hökumətinin iclası başa çatdıqdan sonra bildirib. Xatırladaq ki, Ovik Abramyan 2014-cü il aprel ayının 13-dən Ermənistan baş naziri vəzifəsində çalışır. Bu vəzifədə o, Tiqran Sarkisyanı əvəz edirdi.**

# Ermənistan qarışır... baş nazir getdi

## İşğalçı ölkədə baş verən proseslərin arxasındakı məkrli hiylə - Sərkisyan Qarabağ danışıqlarını yubatmaq istəyir?

Erməni KİV-lərinin verdiyi xəbərə görə, İrəvanın keçmiş meri, Rusiyanın "Qazprombank" şirkətinin vitse-prezidenti Karen Karapetyan bu yaxınlarda Ermənistana geri dönüb. Bildirilir ki, Karen Karapetyan İrəvanın meri vəzifəsindən gözlənilməz istefasından sonra Moskvaya gedibmiş. Serj Sərkisyanın Karen Karapetyanı baş nazir təyin edəcəyi bildirilir.

Erməni mətbuatı hökumətin bəzi üzvlərinin də vəzifəsindən gedəcəyini yazır. İddiaya görə, Prezident Aparatının rəhbəri Vigen Karapetyan Ermənistanın yeni xarici işlər naziri olacaq. Edvard Nalbəndyan isə Fransaya səfir göndəriləcək.

Xatırladaq ki, bu yaxınlarda xarici işlər naziri Nalbəndyan Rusiya prezidenti Vladimir Putin tərəfindən "Dostluq" ordeni ilə təltif edilib. Putinin orden verdiyi naziri Serj Sərkisyanın iş başından alması maraq doğurmaya bilməz.

Bundan başqa, Ermənistanın Gömrük Xidmətinin rəhbəri Ovik Ovsepyanın da vəzifəsindən gedəcəyi bildirilir.

Hökumət iyerarxiyasında ən vacib və ən yeyintili postlardan biri də Energetika Nazirliyidir. Ermənistan KİV-ləri nazir Levon Yolyanın da vəzifəsindən uzaqlaşdırılacağını yazır. Mətbuatda yayılan xəbərə görə, oktyabrda Ermənistanın "Metsamor" AES-ə milyard dollarlıq sərmayə qoyulacağı ilə bağlı xəbərlər dolaşır. Bu isə Ermənistanın rüşvətxor məmur oliqarxiyası üçün xəzinə tapıntısı kimi bir şeydir. Həmin səbəbdən bu vəzifəyə Sərkisyana daha yaxın birinin gətirilməsi gözlənilir.

**Ermənistanda baş verənləri şərh edən politoloq Mübariz Əhmədoğlu bildirdi ki, baş verən hadisələrin Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların gedişi, aprel ayından sonra yaranmış durumla bağlılığı var:** "Aprel savaşı Ermənistandaxili siyasi prosesləri müəyyən edən ən ciddi faktora çevrilib. Azərbaycan ordusunun apreldəki uğuru Ermənistanın daxili siyasətini o vaxtdan yerindən oynadıb. Ermənistanda baş verən istefalar həm Qarabağ məsələsi ilə bağlıdır, həm də Sərkisyanın gələn il keçiriləcək parlament seçkilərinə hazırlığı ilə bağlıdır. Sərkisyan partiyasının qalib gəlməsinə və bu yolla baş nazir kimi ölkə rəhbərliyinə davam etməsinə nail olmaq üçün çalışır. Serj Sərkisyan Karen Karapetyanı İrəvan şəhərinin meri təyin etmişdi. Karapetyan keçmiş prezident Robert Köçəryanın qohumudur, qarabağlıdır. Sərkisyan gördü ki, Karapetyan Köçəryanla birləşib onun hakimiyyətinə təhlükə yarada bilər. Buna görə də Karapetyanı həbs etdirmək istəyirdi. Karapetyan Ermənistanı tərk edib Rusiyaya getdi. "Qazprom"un prezidenti Aleksey Miller isə dərhal ona yüksək vəzifə verdi. O vaxtdan Karen Karapetyan "Qazprom"da işləyirdi. İndi Serj Sərkisyanın ona böyük ehtiyacı yaranıb. Sərkisyan Karapetyanı baş nazir vəzifəsinə gətirməklə Rusiya ilə oyun oynayır, Kremli aldadır. Rusiya Karen Karapetyanın baş nazir təyinatına razılıq verməyib. Kreml əslində istəyirdi ki, Rusiyanın milyarderlərindən olan Samvel Karapetyanın qardaşı Karen Karapetyanı baş nazir vəzifəsinə gətirsin. Bu Karen Karapetyan "Qazprom"da işləyən Karen Karapetyan deyil. Sərkisyanın Rusiyaya qarşı oynadığı oyunlardan biri də ABŞ-a yaxınlığı ilə tanınan Prezident Administrasiyasının rəhbəri Vigen Sərkisyanı xarici işlər naziri gətirməkdir. Sərkisyan görür ki, aprel ayından sonra Qarabağ danışıqlarında Rusiyadan ona təzyiq var, problemin həllinə razılaşması tələb edilir. Ona görə də Sərkisyan ABŞ-a meyllənməyə başlayıb. Serj Sərkisyan Dağlıq Qarabağla bağlı aparılan danışıqlarda bilavasitə iştirak edən Edvard Nalbəndyanı uzaqlaşdırmaqla danışıqlar prosesini yubatmağa, hər şeyi yenidən başlamağa nail olmaq istəyir. Rusiyaya, digər vasitəçilərə və Azərbaycana deyəcək ki, yeni xarici işlər nazirinin prosesin gedişi ilə dərindən tanış olması, hazırlıqlar aparması üçün vaxt lazımdır".



Ovik Abramyan

**Politoloq qeyd etdi ki, Serj Sərkisyan gələn ilin yazında keçiriləcək parlament seçkilərinədək Qarabağ danışıqlarında tamamilə durğunluq yaranmasını istəyir:** "Düşünür ki, danışıqların davam etməsi onu güzəştlərə getmək məcburiyyətinə qoya bilər. Bu isə seçkidə onun uduzmasına gətirib çıxarar. Sərkisyanın məqsədi danışıqları yubatmaqdır. Sərkisyan hesab edir ki, Rusiya işğal olunmuş rayonları alıb Azərbaycana verəcək. Ona görə ABŞ-a yaxın olan şəxsi xarici işlər naziri gətirir və danışıqları yenidən, özü də ABŞ-ın patronajlığı ilə başlasın. Ona görə də söyləmək mümkündür ki, Ermənistanda baş verən istefalar, nazirlərin dəyişməsi Qarabağla bağlı gedən prosesə təsirini göstərəcək. Bununla belə, Sərkisyanın planının sonadək gerçəkləşməsi çətin görünür. Çünki Moskva buna imkan verməyəcək".

❑ **Etibar SEYİDAĞA**

# Meriya müxalifətin mitinq müraciətinə cavab vermir

## 11 sentyabr mitinqinə 2 gün qalsa da, Milli Şuradan BŞBPİ-yə çağırılan olmayıb; Müsavat başqanından isə qanunsuz aksiyalarla bağlı soruşulub

**Müsavat Partiyasının başqanı Arif Hacılı sentyabrın 8-də Bakı Şəhər Baş Polis İdarəsində (BŞBPİ) olub. Partiya rəhbəri Milli Şuranın 11 və Müsavatın 18 sentyabra təyin etdikləri mitinqlərlə bağlı idarəyə çağırılıb.**

BŞBPİ-nin Təhlükəsizlik bölməsinin rəhbəri Nuralla Məmmədxanovla görüşən A.Hacılı idarə önündə olan jurnalistlərə açıqlama verib. "Sentyabrın 8-i Bakı Şəhər Baş Polis İdarəsində (BŞBPİ) Təhlükəsizlik bölməsinin rəisi Nuralla Məmmədxanovla görüşdüm".

Bunu AzadlıqRadiosuna Müsavat Partiyasının başqanı Arif Hacılı deyib. A.Hacılının deməsinə görə, N.Məmmədxanov bildirib ki, onlara Müsavat Partiyasının şəhərin ayrı-ayrı yerlərində piketlər təşkil edərək polislə süni toqquşma yaradacağı haqqında məlumatlar daxil olub: "Mən də dedim ki, bu, ümumiyyətlə, Müsavat Partiyasının fəaliyyətinə xas deyil. Partiya olaraq qanunlara daim sayğı ilə yanaşmışıq. Bütün fəaliyyətimizdə də buna əməl etmişik, bundan sonra da əməl edəcəyik".

**A.Hacılı deyib ki, polis məmuru belə halların aksiya keçirilməsi nəzərdə tutulan məkanda da ola biləcəyini dilə gətirib:** "Biz də buna cavab olaraq bildirdik ki, aksiya təşkilatçıları da asayişin qorunmasında, hər hansı insidentin baş verməməsində maraqlıdır. Burada belə insidentlər olarsa, qarşısını birgə almaqda maraqlıyıq".

A.Hacılı vurğulayıb ki, N.Məmmədxanov aksiyaya icazə verilməyəcəyi ilə bağlı heç bir ifadə işlətməyib.



**Müsavat Divanının üzvü İkram İsrafil hesab edir ki, A.Hacılının BŞBPİ-ə çağırılması mitinqdə fəallığın qarşısını almağa da hesablana bilər:** ""Sərbəst toplaşmaq azadlığı haqqında" Qanun var. Bu qanunda müraciət və müraciətə baxılma müddəti var. Ölkədə qanunlar işləmədiyinə görə müraciətə baxıb cavab verməyə tələsmirlər. Amma bütün hallarda tədbir keçirmək istəyən qurumun müraciətinə zamanında baxılıb cavab verilməlidir. Milli Şuranın mitinqlə bağlı hazırlıqları barədə heç nə deyə bilməyəcəm. Müsavat Divanında Milli Şuranın mitinqində iştirakla bağlı heç bir məhdudiyyət qoyulmayıb. Əgər tədbir olacaqsa, bizlər də iştirak edəcəyik. Bizim zamanımız var, bu müddət ərzində aksiya ilə bağlı rayon təşkilatları ilə görüşlər keçiriləcək. Hazırlıqlar imkanımız çatan səviyyədə başa çatacaq. İcazə verilib-verilməyəcəyi barədə indidən fikir bildirmək tezdir. Ölkədə baş verənlər, iqtisadi böhran, işsizlik və digər problemləri xalqa çatdırmaq üçün hesab edirəm ki, belə tədbirlərin keçirilməsi vacibdir. Milli Şuradan kiminsə mitinqlə bağlı rəsmi quruma dəvət olunması ilə bağlı məlumatım yoxdur. Amma Müsavat başqanının dəvət olunması, açığı, mənə maraqlı gəldi. Çünki mitinqimiz hələ ayın 18-dir. Müsavatçıların qarşıdurma yarada biləcəyi ilə bağlı Müsavat başqanına deyilən fikirlərə gəlincə, bununla razı deyiləm. Çünki bu illər ərzində Müsavat Partiyası və onun üzvləri heç bir qanunsuz hərəkətlərə yol verməyiblər. Baxmayaraq ki, bir sıra tədbirlərimizdə hakimiyyət strukturları bu və ya digər dərəcədə insanları təxribata çəkmək istəyiblər. Bu məsələlərdə kifayət qədər korrektəli davranmışıq. İnanıram ki, bundan sonra da belə olacaq. Bunu önləyici tədbir kimi qəbul edirəm. Müsavat başqanını dəvət etməklə bu və ya digər dərəcədə xof yaratmaq istəyi də ola bilər. Bahalaşma, dolların vəziyyəti insanlarda böyük narazılıq yaradıb. Hakimiyyət də heç bir tədbir görmür. Milyonlarla insan bu gün yaşam mübarizəsi aparır. Bu etirazların çox olması hakimiyyəti də düşündürür. Hesab edirəm ki, Müsavat başqanının çağırılması da bundan xəbər verir".

Qeyd edək ki, Milli Şura və Müsavatın mitinqinin baş tutub-tutmayacağı müəmmalıdır. Çünki BŞİH Milli Şuranın mitinqinə qanunla üç gün qalana qədər cavab verməli olduğu halda, hələ də müraciəti cavablandırmayıb. Bu da icazə verilməyəcəyi ehtimallarını artırır. Əgər Milli Şuraya icazə verilməyəcəksə, bu qərarın Müsavata da şamil olunacağı ehtimalları yüksəkdir. Bununla bağlı "Azadlıq"ın sorğusuna cavab verən BŞİH-in mətbuat xidmətinin rəhbəri Zaur Ramazanov müraciətlə bağlı hələlik qərar qəbul etmədiklərini bildirib: **"Mitinqlə bağlı qərar qəbul edilməyib. Qərar çıxan kimi mitinq təşkilatçılarına rəsmi cavab göndəriləcək".**

Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü Vahid Məhərrəmli "Azadlıq"a açıqlamasında bildirib ki, təşkilatçılara da heç bir xəbər verilməyib: **"Biz ayın 31-də BŞİH-ə müraciət etmişik. Qanunla 1-ci gün bizə cavab verilməliydi. Amma bu günə qədər müraciətdə imzası olan 3 nəfərdən heç birinə cavab təqdim edilməyib".**

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 200 (6521) 9 sentyabr 2016

## Əli Kərimlinin sabiq müşavirindən ittiham dolu açıqlamalar

# "Referendumdan sonra ölkədə yeni situasiya yaranacaq"

### Sahib Kərimli: "Mitinq qərarı verən qurum məsuliyyət hiss etsəydi..."

**AXCP sədrinin keçmiş müşaviri, Milli Şuranın üzvü Sahib Kərimli "Yeni Müsavat"ın qonağı olub, sentyabrın 26-da keçiriləcək referendumdan, müxalifət daxilində gedən proseslərdən, Milli Şuranın 11 sentyabr mitinqindən, ölkədaxili və xaricdə baş verən hadisələrdən danışıb. Sahib Kərimli ilə müsahibənin ikinci hissəsini təqdim edirik.**




*(əvvəli ötən sayımızda)*

**- Sahib bəy, təmsil olunduğunuz Milli Şuranın 11 sentyabr mitinqi ilə bağlı müxtəlif iddialar var. Yəqin ki, bunlardan xəbərsiz deyilsiniz...**

- Ölkədə konstitusiya dəyişikliyi gündəmə gəlib. Ölkə üçün önəmli bir hadisədir. Amma ölkənin bir nömrəli müxalif qurumu adına iddia edən Milli Şuranın sessiyası toplanmadı. Toplansa mənə dəvət gələrdi. Koordinasiya Mərkəzi toplandı və reallıqdan çıxış edərək imitasiya xarakterli bir qərar qəbul edildi ki, sentyabrın 11-nə mitinq təyin olunsun. Aydın məsələdir ki, burada yenə də imitasiya var. Çünki mitinq qərarı verən qurum məsuliyyət hiss etsəydi, cəmiyyətdə narazılığın olduğunu bilə-bilə bu cür qərar verməzdi. Vətəndaş cəmiyyəti və siyasi qurumların konstitusion fəaliyyətlərinə qadağa gətirən bir ənənə var. Hakimiyyət son dönəmdə bu işlə məşğuldur. İndi də mitinqə icazə verilməyəcəyi aydındır. Ona görə paralel qərar bu şəkildə verilməli idi ki, biz filan tarixə mitinq təyin edirik, icazə verilməyəcəyi təqdirdə şəhərin mərkəzi küçələrində həmin gün, həmin saatda tərəfdarlarımızı, cəmiyyəti etiraza səsləyirik. Tərəfdarlar mitinqə hazırlaşırlar, çağırışlar edirlər, amma heç kəs müzakirə etmir ki, mitinqə icazə verilməyəcəyi təqdirdə hansı addımlar atılacaq. Təbii ki, bu addımlar kimlərəsə öncədən bəllidir. İcazə verilməyəcək, referendum öncəsi daha bir mitinq təyin olunacaq, buna da təbii ki, icazə verilməyəcək... Beləliklə, proses yola veriləcək. Amma kimlərsə qəhrəman olacaq, "ən radikal, barışmaz mübarizənin simvolu" kimi xarakterizə olunacaq. Açıq danışmalıyıq, bizim faciəmiz bir də ondan ibarətdir ki, bu illər ərzində ölkədə real sorğu mərkəzləri fəaliyyət göstərməyib. Cəmiyyəti öyrənə bilməmişik. İnsanlar nə görürlər, dəyişikliyi necə istəyirlər, bax bunları bilmirik. Bunları öyrənən mərkəzlər olmalı idi. Biz o mərkəzlərin rəylərindən çıxış edərək siyasət yürütməli idik. Yanaşmalarımızı, baxışlarımızı bunların üzərində qurmalıydıq. Əslində cəmiyyətin içərisində olduğumuza görə azdan-çoxdan istəkləri bilirik. Bu istəklərdən çıxış etməliyik. Bu ölkədə sistem islahatlarına ehtiyac var. İslahatları həyata keçirmək üçün cəmiyyətin dəstək verdiyi, hakimiyyətinə real təhlükə yarada bilmədiyimiz siyasi iradəsi olan İlham Əliyev var. Bu baxımdan, prezident hədəfə gəlmədən, o, hədəf göstərilmədən, amma ümumən sistemin özü hədəf seçilərək islahatlara cəlb edilməlidir. Bunun üçün böyük bir birliyə ehtiyac var. Hər kəs bunun üçün əməkdaşlığa hazır olmalıdır.

**- İqtidar-müxalifət münasibətləri heç zaman ürəkaçan səviyyədə olmayıb. Sizcə, müxalifət, yoxsa iqtidar bu istiqamətdə addım atmalıdır?**

- Məsuliyyət iqtidarın üzərindədir. Çünki məsul qüvvə onlardır. Ölkədə sağlam mühiti də onlar yaratmalıdır. Çox təəssüf ki, bunlar hələ baş verməyib. Hakimiyyət daxilində elə qüvvələr var ki, bu gərginliyi daim artırırlar. Nəticədə cəmiyyətdə qütbləşmə yaranır. Əslində onlar açılımdan qorxan qüvvələrdir. Məsələn, aprel əməliyyatları vaxtı cəmiyyətdə ciddi canlanma var idi. Həmin vaxt müxalifət liderlərindən birinin evinin qarşısında aksiya təşkil etmək əmin olun ki, həmin hakimiyyətdaxili qrupun işi idi. İqtidar artıq bunun fərqində olmalıdır. Yaranan şansdan istifadə edib, islahatlara gedilməli, həmin qrupu da zərərsizləşdirmək lazımdır. Belə qrupun olması xarici qüvvələrin də marağında olur. İndi şərait var ki, Cənubi Qafqazda "İsveçrə modeli"ni yaradaq. Bu imkanlar bizdə var. Bunlar tətbiq olunsa, ölkə daxilində ciddi proseslər baş verər, xalqın rifahı yüksələr.

**- Bir il öncə AXCP qurultayında Əli Kərimliyə alternativ oldunuz və son anda geri çəkildiniz. Yenidən belə iddianız ola bilərmi?**

- Qurultay prosesini izlədiniz. Qurultaydakı çıxışımdan da xəbərsiz deyilsiniz. 2018-ci ilə kimi zaman tanıma məsələsi var. Amma artıq proseslər elə yerə çatıb ki, cəmiyyəti toparlamaq, hər hansı bir məsələyə cəlb etmək bir partiyanın, qrupun əlində deyil. Dediyim kimi, əxlaqlı siyasətə inanaraq, cəmiyyət, özümüz, ailəmiz naminə böyük bir birliyə ehtiyac olacaq. Bu mənada bu müsahibəmdə indiki situasiyada AXCP daxilində baş verən proseslərlə, iddiamla bağlı geniş məsələlərə şərh verməyi lüzum bilmirəm.

**- Siz qurultayda Əli Kərimliyə 2018-ci ilə qədər vaxt qoyanda prezident seçkilərini nəzərdə tutmuşdunuz. Amma referendumdan sonra prezident seçkiləri keçirilə bilər. Belə olan halda, AXCP rəhbərliyinə qarşı çıxmaq planınız tezləşə bilərmi?**

- Təbii ki, ölkədə prezident seçkiləri olacaqsa, yeni situasiya yaranacaqsa, qərarımıza yenidən baxmaq zərurətimiz yaranacaq.

**- Əli Kərimli ilə qurultaydan sonra şəxsi münasibətləriniz necədir?**

- Əlaqələrimiz yoxdur. Bu dönəmdə Milli Şuranın sessiyası bir dəfə oldu. O zaman da ölkədə deyildim. Ondan başqa Xocalı faciəsi günü ənənəvi ziyarətimiz zamanı bir dəfə təmasımız oldu. Salamlaşdıq. Başqa şəxsi təmasımız, birlikdə nəyisə müzakirə etməyimiz olmayıb.



### "Əli Kərimli ilə əlaqələrimiz yoxdur"

**- Bir il öncə AXCP rəhbərliyində təmsil olunurdunuz. Qurultaydan sonra rəhbərliyə alternativ olduğunuz üçün sıravi üzv qaldınız. Maraqlıdır, Müsavat Partiyasında da eyni hadisələr yaşandı, yəni rəhbərliyə namizəd olan şəxslərin taleyini siz də yaşadınız...**

- Bu ənənəvi yanaşmadır. Amma Müsavat rəhbərliyinə iddiaçı olan şəxslərin taleyini mən yaşamadım. Çünki hazırda AXCP-nin üzvüyəm. Rəhbərlikdə təmsil olunmuram. Amma partiyada sıravi üzv kimi fəaliyyətimə heç bir məhdudiyyət yoxdur. Ona görə də Müsavat daxilində yaşanan hadisələrə münasibət bildirməyi doğru saymıram.

**- Müsavat başqanlığına namizəd olanlar sonradan başqa qurum yaratdılar. Sizin də belə ehtimalınız varmı?**

- Tələsmək lazım deyil. Çünki referendumdan, hətta 11 sentyabrdan sonra ölkədə yeni situasiya yaranacaq. Yəni mitinqə icazə verilib-verilməyəcəyi, eləcə də, verilərsə, necə keçəcəyi indidən bəlli deyil. Ona görə də fəaliyyətimizlə bağlı referendumdan sonra yenilənmələr olacaq. Çünki yeni şərait yaranacaqsa, ona uyğun şəkildə qərarlar qəbul etmək zərurəti meydana çıxacaq. İndidən gələcək fəaliyyəti konkret müəyyən etmək mümkün deyil.

**- Aprel döyüşlərindən sonra Dağlıq Qarabağ probleminin həlli istiqamətində gedən prosesləri necə dəyərləndirirsiz?**

- O zaman fikrimi ifadə etdim. Şəhidlərimiz oldu. Allah hamısına rəhmət eləsin. Əslində bu dövlət şəhid övladlarının böyüməsi üçün ciddi bir iş görməmişdi. Amma şəhid valideynlərimiz "Vətən sağ olsun" kimi sözlərlə övladlarını son mənzilə yola saldılar. O zaman yazmışdım ki, bunu heç zaman unutma, dövlət. Vətəndaşın bu fədakarlığını unutmaq nankorluq olardı. Bu insanlar yaxşı bir sistemi haqq edirlər. Aprel əməliyyatlarında bir daha göründü ki, xalqımız Qarabağın itirilməsi ilə razılaşmayacaq. Bir daha onun möhürü vuruldu ki, Qarabağ bizim olacaq. Aprel əməliyyatları yeni situasiya yaratdı. Bu zamana kimi o fikir mövcud idi ki, Ermənistan bizimlə təkbaşına bacara bilməz. İnsanların alt şüurunda belə bir narahatçılıq var idi, bu müharibədə məğlub olmuşuq. Amma aprel əməliyyatları onu göstərdi ki, potensialımız bütün mənalarda Ermənistandan daha üstündür, biz haqlı tərəfik, döyüş ruhumuz var. Danışıqlar yolu ilə olmasa da, nə zamanda ilk fürsətdə torpaqlarımızı azad edə bilərik. Bu əlavə stimuldur. Qarabağla bağlı beynəlxalq aləmin yanaşmasında da müəyyən irəliləyişlər oldu. Müxtəlif beynəlxalq təşkilatlardan, ölkələrdən Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğu ifadə edildi. Geopolitik məkan, dünya şərtləri qarşımızda yeni bir mühit yaradıb. Bunu gizlətməyə ehtiyac yoxdur. Etiraf etməliyik ki, Türkiyə, Rusiya və İran dövlətlərinin əhatəsində Qərbə qarşı bir mövqeyimiz var. Hakimiyyət nə qədər balanslı siyasət yürütdüyünü desə də, tərəf seçmək məcburiyyətindəyik. Bu mənada əlavə şərait yaranıb ki, Qarabağla bağlı təsir imkanları olan Rusiya və İran dövlətlərinə tələb səsləndirilsin. Bu yolla ermənilərə təzyiq etməyimiz, onlara bu dövlətlərin verdikləri dəstəyin azalmasını asanlaşdıra bilərik. Çünki regionda artıq biz sözümüzü əvvəlki illərə nisbətən demək gücündəyik.

**- Türkiyədəki hərbi qiyamın iki ayı yaxınlaşır. Prosesləri dərindən izlədiyiniz yazılarından hiss olunur. Prosesləri necə dəyərləndirirsiz?**

- Gəncliyimizdən romantik Türkiyə sevgimiz var. Bu daha çox hərəkat dönəmindən formalaşıb. Türkiyə bizim üçün qardaş ölkədir. Türkiyə ilə bağlı nəyisə dəyərləndirəndə digərlərindən ayırmaq məcburiyyətindəyik. Uzun illərdir Rəcəb Tayyib Ərdoğan iqtidarını dəstəkləyən mövqe sərgiləyirəm. Bunun çoxlu səbəbləri var. İlk növbədə, Azərbaycan maraqlarından çıxış edərək, Ərdoğan iqtidarının uğurlarına daim sevinmişəm. Arzu etmişəm ki, Türkiyədə inkişaf prosesi bir an belə durmasın. Bəzi dostlarımız Türkiyənin avtoritar ölkəyə doğru getdiyini, demokratiyadan imtina etdiyini düşünür və bunu dilə gətirir. Hesab edirəm ki, bu fikirlərin heç bir əsası yoxdur. Həqiqətən Türkiyə AKP hakimiyyəti dövründə böyük sıçrayış əldə edib. Təbii ki, bundan əvvəl Turqut Özalın islahatları və digər amillər burada mühüm rol oynayıb. Bir ölkənin ən güclü halı onun təbiiliyidir. Belə fikirlər var ki, Türkiyə Osmanlı sisteminə qayıdır. Bu fikirlər doğru ola bilməz. Qardaş ölkədə din türkləşib. Türkləşən din heç zaman sekulyar sistemi hədəf almayacaq. Əksinə, Türkiyə böyümək istəyir. Ölkənin bütün potensialı ümumi dövlət sisteminə birləşdirilmək istəyir. İllərdir Türkiyə ilə yaxın təmasdayıq. Bu baxımdan, ölkənin böyük dövlət olmaq istəyini normal qarşılamaq lazımdır. Türk insanı deyir ki, biz böyük dövlətik, Osmanlının torunlarıyıq, bizi sevməyən qüvvələr var. Bu insanların düşüncələrini Ərdoğan öz şəxsi bacarığı, keyfiyyətləri ilə yerinə yetirmək istəyir. Məhz buna görə də xalqdan ciddi dəstək aldı. Ortada 15 iyul qiyamında bir xalq müqaviməti oldu. Osmanlı ruhu və demokratiya istəyən istəklər həmin gün birləşdilər. Ortaya bir model qoydular. Keçmiş sistemlə çağdaş dövrün uğurlu sistemi sintez təşkil etdi. Nəticədə böyük bir uğur qazanıldı. Türkiyədə həmən situasiya dəyişdi. Qiyamdan sonra məlum oldu ki, Türkiyənin içərisinə xarici kəşfiyyat sızıb, hətta onlara yaxın şəxslər rəhbərlikdə təmsil belə olunurlar, o şəxslər ki, xalqına belə atəş açırlar, Türkiyə məhz 15 iyuldan sonra bu şəxslərdən təmizlənməyə başladı. Artıq ortada siyasi bir iradə var. Xalqdan güc alan, milyonlarla insanı meydana yığa bilən bir iqtidarın olduğu göründü. Bu proseslər Türkiyəni zəiflətmədi, əksinə, güclənərək çıxdı. Güclü Türkiyə, güclü Azərbaycan deməkdir.

❑ **Hazırladı Cavanşir ABBASLI**
**Fotolar Məhəmməd TÜRKMƏNİNDİR**

# MTN çetesi onun toruna düşən sabiq rəisi necə güdüb...

**Bir neçə gündür ki, "Bakı Metropoliteni" QSC-nin sabiq rəisi Tağı Əhmədovun ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarova indiki hesablamalarla təqribən 4 milyon (2 milyon dollar, 1,5 milyon avro və 300 min manat) manat verməsi barədə məqalələr dərc edilir.**




# Tağı Əhmədovu bitirən səbəb - "pullarını seçki ərəfəsi bankdan niyə çıxarır..."

## 2013-cü ilin prezident seçkisi ərəfəsində bir günün içərisində bir neçə bankdakı pullarını geri çəkmək zorunda qalan "Bakı Metropliteni"nin rəhbəri şübhə altına düşüb; banklara "Tağı Əhmədova pulunu qaytarın" mesajı verilib və izləmə da məhz MTN-ə həvalə olunub...

İddia edilir ki, MTN-ə 10 ədəd "Range Rover" markalı avtomobil lazım olub. Bunun üçün büdcədən pul ayrılıb. Lakin A.Çovdarov ayrılan məbləği mənimsəyərək, Tağı Əhmədovdan həmin maşınları alıb verməsini istəyib. T.Əhmədov isə bundan imtina edib. A.Çovdarov da intiqam məqsədi ilə onun ətrafında olanlar barədə araşdırma aparıb. T.Əhmədovun qardaşı oğlu Şövqi Tağıyev və digər qohumu Elşən Tağıyev (qardaşı oğlu) A.Çovdarovun göstərişi ilə saxlanılıb. Onlara MTN-də fiziki təzyiq olunub. Sonda T.Əhmədov məcburən 3 milyon manatı verməyə razılaşıb. Onun oğlu Ruslan və qardaşı oğlu Əli 1,2 milyon dollar, 1,5 milyon avro və 300 min manat pulu qara idman çantasında A.Çovdarova verib.

A.Çovdarov vəkili vasitəsilə "Yeni Müsavat"a öz mövqeyini açıqlayıb, iddiaları təkzib edib, üstəlik, deyib ki, Tağı Əhmədovun kiçik oğlu bu yaxınlarda aeroport yolunda dayanacaqda maşını ilə adam vurub. O biri oğlunun da barəsində rayon polis idarələrində cinayət materialları var. Həbsdəki general iddia edir ki, bunları ört-basdır etmək üçün Tağı Əhmədovu ona qarşı istifadə edirlər.

"Yeni Müsavat" T.Əhmədovun rüşvət qalmaqalı ilə bağlı daha sensasion məlumatlar əldə edib. Məlum olur ki, T.Əhmədovun işdən çıxarılmasının əsas səbəbi də bu pul məsələsi olub. Mənbəmiz deyib ki, "Range-Rover" "Jaquar", "Maserati" avtomobillərinin və "Dicati" motosikletlərinin rəsmi distribütoru olan "Crystal Motors" şirkətinin sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun ailə şirkəti olan "Caspian Crystal" holdinqə bağlılığını bilməyən yoxdur. Yəni MTN-in texniki təchizatı üçün dövlət büdcəsindən ayrılmış pullar Eldar Mahmudov oğlunun rəhbərlik etdiyi şirkətin "Range-Rover"lərinin alınmasına yönəldilib. Təsadüfi deyil ki, E.Mahmudovun əməkdaşlarının ixtiyarında olan avtomobillərin böyük əksəriyyəti də "Range-Rover" olub. T.Əhmədovdan da 10 "Rang-Rover" almaq tələbi buradan yaranıb. Əlbəttə ki, Eldar Mahmudovun göstərişi ilə T.Əhmədovdan alınan pullar sonunda E.Mahmudovun ailə şirkətinə çatacaqmış.

T.Əhmədovun israrı isə ona və yaxın çevrəsinə baha başa gəlib. Hadisə, təqdim edildiyi kimi, 2014-cü ilin aprelində deyil, 2013-cü ilin sonunda baş verib. "Yazılır ki, guya Tağı Əhmədov və qohumları MTN-də yoxlamalarla şantaj olunub. 2014-cü ilin aprelində Tağı Əhmədov daha rəis deyildi, yaxın ətrafı da işdən uzaqlaşdırılmışdı" deyə, mənbəmiz xatırlatma verib.

Beləliklə, T.Əhmədov MTN generallarının ciddi basqısını gördükdən sonra istənilən məbləği vermək zorunda qalıb. Bunun üçün isə o, bir günün içərisində bir neçə bankdakı pullarını geri çəkmək zorunda qalıb. Məlumdur ki, banklar pulu sevinə-sevinə əmanət kimi qəbul etsələr də, qəfil geri istəməkdən narazı qalırlar. Mənbəmiz deyib ki, müxtəlif banklardan bir gündə 2 milyon dollarını, 1,5 milyon avrosunu geri istəyən "Bakı Metropoliteni"nin rəisi şübhələrə səbəb olub. Həssas dönəmdə *(2013-cü il seçkiləri ərəfəsi "Milyarderlər İttifaqı" adlı bir qurum yaradılmışdı, müxalifət isə birləşərək Milli Şura ilə seçkiyə qatılmışdı)* onun milyonları qəfil geri çəkməsi tez bir zamanda "yuxarılara" çatıb. "Tağı Əhmədova pulunu qaytarın" tapşırığı verilib. Mənbə deyib ki, "Bakı Metropoliteni" rəisi nəzarətə götürülüb və bu iş də məhz MTN-ə həvalə olunub. Aydındır ki, MTN generalları özləri üçün geri çəkilən pulun nəyə yönəldiyini deməyiblər, izi azdırıblar, bu məbləğin büdcədən yayındırıldığını deyiblər. Xatırladaq ki, məhz həmin dövrdə elektron mediada "Bakı Metropliteni" QSC-də büdcə vəsaitlərinin mənimsənilməsi ilə bağlı xəbərlər daha da intensivləşmişdi ki, bu da MTN nəzarətində olan saytlarda daha çox nəzərə çarpırdı. Beləliklə, 2014-cü il fevral ayının 27-də T.Əhmədov işdən çıxarıldı.

Mənbəmiz deyir ki, T.Əhmədov MTN çetesi ifşa olunandan sonra bu məsələni qabartmaqla həmin dövrdə "siyasi səhv" etmədiyini, sadəcə, şantaj olunduğunu açıqlamaq məqsədi güdüb. Çünki özü də yaxşı bilir ki, o pulun bir manatını belə geri verən deyillər...

Xatırladaq ki, MTN çetesi bir çox yüksək rütbəli məmurları müxtəlif yollarla şantaj edərək, onlardan böyük məbləğdə pul, daşınmaz əmlak və s. qopardıb. Siyahıda elə yüksək rütbəli məmurların adları var ki... Əksəriyyəti də ailə üzvləri və ya özlərinə aid videomateriallarla şantaj olunaraq xəraca oturdulub. Eldar Mahmudovun cəza dəstəsinin pul istəyindən boyun qaçıran yüksək rütbəli məmurların ən yaxın qohumları, ailə üzvləri az müddət sonra MTN-in təcridxanasına salınırmış. Hazırda həbsdə olan MTN generallarının məhkəməsi açıq keçirilsə və orda ifadələr heç bir təzyiq olunmadan verilsə, ortaya ölkəni şoka salan informasiyalar çıxar. Zatən Akif Çovdarov bunun anonsunu vəkili vasitəsilə verib. Həbsdəki general vəkili vasitəsilə "Yeni Müsavat"a göndərdiyi açıqlamada Azərbaycan xüsusi xidmətinin agentura şəbəkəsini deşifrə edəcəyi ilə hədələyib. "Demərəm", "etmərəm" sözlərinin gerçək anlamı əslində "deyərəm", "edərəm", "agentura şəbəkəsini açaram" kimi başa düşülməlidir. Ortada başqa faktlar da var, A.Çovdarov onları açsa, Azərbaycanda ictimai-siyasi proseslərin yönü necə dəyişər - bunu söyləmək o qədər də çətin deyil.

❑ **"Yeni Müsavat"**

# "Danışsam, agentura şəbəkəsi ifşa olunar"

## Məhbəsdəki MTN generalı: "Tağı Əhmədovun kiçik oğlu maşınla adam vurub..."



**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarov ona qarşı irəli sürülən ittihamlarla razı deyil.**

Bu barədə onun vəkili Sadiq Rəsulov musavat.com-a məlumat verib.

Vəkilin sözlərinə görə, A.Çovdarov bildirib ki, dövlətin pulunu mənimsəməyib.

Həbsdə olan Akif Çovdarov agenturaya ayrılan vəsaiti mənimsəməsi ilə bağlı ittihamlar barədə vəkilinə bunları deyib: "Dövlətin bir qəpiyini belə mənimsəməmişəm. İttiham aktında göstərilən həmin pullar agenturaya sərf olunan məbləğlərdir. Mən o barədə açıqlama versəm, Azərbaycanda rüsvayedici vəziyyət yarana bilər. Hətta agentura şəbəkəsi ifşa olunar. Müəyyən qüvvələr prokurorluğun əli ilə məni agentura şəbəkəsini ifşa etməyə məcbur edirlər. Həmin pullar 2013-2015-ci illər arasında agenturaya sərf olunub. Mənim dövlətçiliyin maraqlarını qorumaq məqsədilə susmağımdan istifadə edərək, barəmdə əlavə ittiham irəli sürdülər. Bilirlər ki, xüsusi əhəmiyyətli sirri açan deyiləm. Mən ancaq bu sirri dövlət rəhbərliyinin razılığı ilə açıq bilərəm. Buna isə razı olmazlar. Bu zaman kəşfiyyat və əks-kəşfiyyat deşifrə olar. Mənə qarşı saxta ittihamlar irəli sürüldü. Qeyd etdiyim qüvvələr dövlətin çətinə düşməsinə bilərəkdən göz yumurlar. Bütün bu hərəkətlər mənə qarşı deyil, məndən istifadə etməklə birbaşa dövlətə qarşı hərəkətlər edirlər. Həmin pullar bir qəpiyinə qədər dövlət təhlükəsizliyinə xərclənib. Dövlət rəhbərliyinin göstərişi ilə ittihamda göstərilən məbləğlərin hər bir manatına qədər hesabat verə bilərəm".

**Vəkil bildirib ki, Akif Çovdarov "Bakı Metropoliteni"nin sabiq rəhbəri, indiki YAP Yasamal rayon təşkilatının sədri olan Tağı Əhmədovdan hədə-qorxu yolu ilə 3 milyon manat alması barədə də danışıb.**

**A.Çovdarov bu haqda vəkilinə bunları söyləyib:** "Mən istintaq dövründə Tağı Əhmədovla üzləşmək istədim. Lakin bizim vəsatətlərimiz təmin edilmədi. Tağı Əhmədovun kiçik oğlu bu yaxınlarda aeroport yolunda dayanacaqda maşını ilə adam vurub. O biri oğlunun da barəsində rayon polis idarələrində cinayət materialları var. Hesab edirəm ki, bunları ört-basdır etmək üçün Tağı Əhmədovu mənə qarşı istifadə edirlər".

Vəkil onu da əlavə edib ki, A.Çovdarovdan şikayət ərizəsi vermiş bir neçə şəxs dələduzluq maddəsi ilə həbs olunmuş şəxslərdir və onların iddialarını ciddi qəbul etmək olmaz.

Xatırladaq ki, istintaq materiallarına əsasən, A.Çovdarov T.Əhmədovdan 3 milyon manata yaxın pul alıb. Pulu A.Çovdarova T.Əhmədobun qardaşı oğlu Ə.Əhmədov çatdırıb.

Pulun verilməsində məqsədə gəlincə isə bildirək ki, iddia edilir ki, MTN-ə 10 ədəd "Range Rover" markalı avtomobil lazım olub. Bunun üçün büdcədən pul ayrılıb. Lakin A.Çovdarov ayrılan məbləği mənimsəyərək, Tağı Əhmədovdan həmin maşınları alıb verməsini istəyib. T.Əhmədov isə bundan imtina edib.

A.Çovdarov da intiqam məqsədi ilə onun ətrafında olanlar barədə araşdırma aparıb. Əhmədovun qardaşı oğlu Şövqi Tağıyevin və digər qohumu Elşən Tağıyev (Tağı Əhmədovun qardaşı oğlanları) A.Çovdarovun göstərişi ilə saxlanılıb. Onlara MTN-də fiziki təzyiq olunub. Sonda Tağı Əhmədov məcburən 3 milyon manatı verməyə razılaşıb. Onun oğlu Ruslan və qardaşı oğlu Əli 1,2 milyon dollar, 1,5 milyon avro və 300 min manat pulu qara idman çantasında 2014-cü ilin aprel ayında Bakıda A.Çovdarova məxsus mənzillərin birində şəxsən onun özünə veriblər.

Onu da əlavə edək ki, istintaq zamanı Akif Çovdarov Tağı Əhmədovun qardaşı oğlu Əli Əhmədovla üzləşdirilib. Vəkilin sözlərinə görə, Əli Əhmədov pulu Akif Çovdarova harada verilməsi soruşularkən doğru cavab verə bilməyib.

Qeyd edək ki, A.Çovdarov ötən ilin noyabr ayında həbs edilib. A.Çovdarov və MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq işçisi, polkovnik Səlim Məmmədov, MTN-in sabiq idarə rəisi, mayor Akif Əliyev və keçmiş şöbə rəisi Orxan Osmanovun cinayət işi üzrə ittiham aktı ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən Azərbaycan Respublikasının baş prokuroru tərəfindən təsdiq edilərək sentyabrın 5-də aidiyyəti üzrə baxılması üçün Bakı Hərbi Məhkəməsinə göndərilib.

**Yazıda adları çəkilənlərin mövqeyini dərc etməyə hazırıq.**

❑ **İlkin MURADOV**

YENİ MÜSAVAT
N 200 (6521) 9 sentyabr 2016

# Plakatını göstər, deyim kimsən



Zamin HACI
zaminhaci@gmail.com

**Bu yaxında MSK sədri Məzahir müəllim Bakıda bir binaya girəndə şəffaf qapını görməyib ona kəllə vurmuşdu, alnı çapılmışdı, diqqətli jurnalistimiz bunun fotosunu çəkib qəzetə qoymuşdu. (bax: "Yeni Müsavat", 31 avqust, 2016, "Məzahir Pənahov qəza keçirdi" yazısı). Özü də deyir zərbə necə güclü olubsa Məzahir müəllim həmin tədbirdə qeyri-iradi hərəkətlər edirmiş, qəfildən gülürmüş, birdən ağlayırmış və sairə.**

Ömrü boyu qeyri-şəffaf, saxta işlərlə məşğul olan adamın şəffaf qapını görməyib ona başını çırpması taleyin oyunu, simvolik zərbə sayılmalıdır. Ancaq bunlar ciddi problem deyil, hər kəsin başına bədbəxt hadisə gələ bilər, əsl bədbəxtlik xoşbəxt hadisənin yoxluğudur.

O qapı zərbəsindən sonra mən bizim referendum şousu ilə azca maraqlandım. Müxalifətdən heç bir təşviqat qrupunu MSK yuxarıdan gələn sifarişlə qeydə almadı, indi qəribə durum yaranıb, özləri çalıb özləri oynayırlar. Heç qabaqlardakı kimi demokratiya imitasiyasına da ehtiyac görməyiblər. Rəsmən 3 təşviqat qrupu yaradıblar, bunun hər üçü referenduma "hə" deyir. Üçü də YAP-ındır. Baxmayaraq formal olaraq birinə "YAP", o birinə "Bələdiyyə", üçüncüsünə də "Vətəndaş Cəmiyyəti" adı yapışdırıblar. Misal üçün, "Bələdiyyə" qrupunu MSK-da təmsil edən Əli Əkbərli adlı adam Yasamal bələdiyyəsinin üzvüdür. Onun Yasamal icra hakimiyyətinin saytındakı tərcümeyi-halında YAP üzvü olması açıq göstərilib. Üçüncü "Vətəndaş Cəmiyyəti" isə tamam karikaturadır, çünki bunlar da hamısı yapistlərdir, məsələn, Fəzail Ağamalıdan tutmuş Çingiz Qənizadəyə qədər. Rəşad Məciddən Novruzəli Aslanacan. Əgər bu adamlar vətəndaş cəmiyyətidirsə, o zaman mən özümü Alp Ər Tonqa elan edirəm.

Təbii ki, bələdiyyəsi olmayan ölkədə bələdiyyə adından konstitusiya təşviqat qrupu yaradılırsa, niyə vətəndaş cəmiyyəti qrupu da olmasın? Bu mənada yapistlərin, Məzahir müəllimin hərəkəti anlaşılandır, qəbul ediləndir. "Dəvəyə dedilər boynun əyridir, cavab verdi haram düzdür ki" məsəli fason. Dəvə dedim yaxşı yadıma düşdü, bir mifoloji inanc var, xüsusən bizim tipli ölkələrdə həmişə aktual olur: "Dəvəquşu başını quma soxub, elə sanır gizlənib". Hələ bir az tərbiyəsiz "... arxasından xəbərsizdir" variantı da var. Ancaq uca millətimizə kədərli informasiya vermək istəyirəm ki, bu, tamamilə yalandır, dəvəquşular heç vaxt qorxub başlarını harasa soxmurlar. Sadəcə, bəzən başqa quşlar kimi çınqıl udmaq üçün başlarını qumluğa soxurlar (balaca daş həzmə kömək edir), vəssalam. Sözümün canı odur ki, yazıq dəvəquşulardan əl çəkək, bir-birimizi qaralamaq istəyəndə ayrı misal tapaq.

O yanda Əflatun müəllim də boş durmur, neçənci dəfədir deyir savadsız adamlar sosial şəbəkələrdə ağzına gələni yazır, buna əncam çəkməliyik. Neyləyək, bəlkə Facebook Şurası düzəldib ora Amaşovu sədr seçək, o da pullu adamlara "Facebookun dostu" mükafatı versin? Yoxsa sakitləşənə bənzəmir. Qınamıram. Çap mediasının fatihəsini verib, halvasını yeyib, indi təzə obyekt lazımdır. Sözgəlişi, qınayıram, bu boyda referendum olur, heç müəllim "Mətbuat" təşviqat qrupu düzəltmədi. Devalvasiyanın yan təsiri saymalıyıq.

Sonda referendum üzrə təşviqat qruplarının üçünün də plakatını eyni mətbəxdə "bişirən" yoldaşlara məsləhət görərdim bir az yenilik etsinlər, yoxsa bütün plakatlar eyni tərtibatda, eyni şüarla, eyni bayraqla "bəzədilib". Ən gülüncü isə "Vətəndaş cəmiyyəti" adlı təşviqat qrupunun plakatına yazılan "Güclü dövlətə səs verək" şüarıdır. Bu yelbeyinlər anlamır ki, vətəndaş cəmiyyəti dövlətin güclü olmasını istəyə bilməz. (Güclü vətəndaş cəmiyyəti dövləti qüdrətli edir, ancaq bu ayrı temadır). Təxminən, quzuların "Güclü canavar istəyirik!" şüarıyla mitinq eləməsi kimi bir şeydir.

# Hakimiyyətin referendumu Qərblə razılaşdırması iddiaları ciddiləşir

**Sentyabrın 26-da konstitusiyaya ediləcək dəyişikliklərlə bağlı keçiriləcək referenduma az müddət qalıb. Günlər keçdikcə referendum ətrafında müxtəlif iddialar yaranıb. Əsas iddialardan biri Azərbaycan hakimiyyətinin konstitusiyaya ediləcək dəyişiklikləri Qərblə razılaşdırması ilə bağlıdır.**

## Elxan Şahinoğlu: "Qərbdən dəstək olacaq"



Elxan Şahinoğlu

**"Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev** "Yeni Müsavat"a bir neçə gün öncə verdiyi açıqlamada bu fikirləri səsləndirib. Onun açıqlamasının ardından digər ekspertlər də bu yöndə iddialar irəli sürürlər. Son olaraq AXCP sədrinin sabiq müşaviri, Milli Şuranın üzvü Sahib Kərimli "Yeni Müsavat"a müsahibəsində referendumun Qərblə razılaşdırıldığını bildirib. Bütün bunlardan sonra bu iddialar ətrafında hər keçən gün müzakirələr qızışır. Yaranan iddiaların fonunda Azərbaycan iqtidarının nəyin müqabilində referendumu Qərblə razılaşdırması müzakirə olunur. Ekspertlərin bununla bağlı ilkin rəylərindən çıxış etsək, ölkə iqtidarının iqtisadi və siyasi sahələrdə referendumdan sonra islahatlar keçirəcəyi ilə bağlı Qərbə verdiyi vədin burada mühüm rol oynadığını deyə bilərik.

**Politoloq Elxan Şahinoğlu irəli sürülən razılaşma iddiasını real qiymətləndirdiyini söylədi:** "Vitse-prezident postlarının yaradılması məsələsinin ortaya atılması gözlənilməz oldu. Zaman keçdikcə mənə də aydın oldu ki, hakimiyyət uzun müddət bu proseslərə hazırlaşıb. Çünki siyasi islahatlara zərurət yaranmışdı. İqtisadi sahədə yaranan problemlərdən sonra hiss olunur ki, hakimiyyət Nazirlər Kabinetindən narazıdır. Məsələn, hakimiyyət referenduma gedir, amma az sayda rəsmi şəxs referendumla bağlı bilgilidir. Cəmi 2-3 nəfərin indiyə qədər mövqeyi ilə tanış olmuşam. Onlar da mövqelərində işarə vururlar ki, iqtidar Nazirlər Kabinetindən razı deyil, prosesləri sürətləndirmək üçün konstitusiyaya dəyişikliklər lazımdır. Aydın məsələdir ki, əvvəlcədən Qərblə bu yöndə danışıqlar gedibsə, Qərb dairələri buna etiraz edə bilməzdi. Çünki onlar da islahatlar tərəfdarıdır. Yaxın 3 ildə iqtisadi sahədə Azərbaycan üçün müəyyən çətinliklər olacaq. Rövnəq Abdullayev açıqlamasında bildirdi ki, 2019-20-ci illərdə qazancımız yenə də on milyardlarla olacaq. Bütün bunlara görə hakimiyyət yaxın 3 ildə elə bir siyasət aparmalıdır ki, cəmiyyət etirazlara qalxmasın. Bu yöndə düşünürəm ki, Qərblə müəyyən məsləhətləşmələr də olub. Çünki indiyə qədər bir təzyiq belə olmayıb".

**Politoloq Venesiya Komissiyasının rəyinin olmamasına da aydınlıq gətirdi:** "Konstitusiyaya 23 dəyişiklik, 6 əlavə nəzərdə tutulub. Əlavə və dəyişikliklərə baxsaq, burada beynəlxalq hüquqa zidd nəsə yoxdur. Ən çox haqqında danışılan maddə vitse-prezidentlər postunun yaradılmasıdır. Bu da bir çox Qərb ölkələrində var. Bu baxımdan, Qərbdən dəstək olacaq. Amma əsas müzakirə mövzusu məlumdur ki, paralel qurumların olmasıdır. Səlahiyyətlər vitse-prezidentlərə veriləcəksə, Nazirlər Kabinetinə nə ehtiyac var? Venesiya Komissiyası ilə çox güman ki, danışıqlar olub. Ona görə də komissiyanın mənfi rəyi yoxdur".

**E.Şahinoğlu hökumətin referendum razılaşdırmasını nəyin müqabilində edə biləcəyi ilə bağlı versiyalarını irəli sürdü:** "Azərbaycanın dərin islahatlara ehtiyacı var. Referendum olmayıb, amma biz artıq problemlərin dərinləşdiyini görürük. Təkcə bankların dollar satmamasını qeyd edə bilərik. Bu, iqtisadi böhranın ciddi anonsudur. Prezident çıxışlarında da deyir ki, elə məhsullar istehsal etməliyik ki, bizə valyuta gətirsin. Qərb uzun illərdir Azərbaycandan iqtisadi və siyasi sahələrdə islahatlar tələb edir. Bu artıq zərurətə çevrilib. Qərb bunu anladığına görə proseslərə mane olmaq istəmir".

❑ **Cavanşir ABBASLI**

# ABŞ seçkilərinə Moskva təhdidi - Rusiya "öz namizədi"nin qələbəsinə çalışır

## Analitiklərə görə, Kreml "bir daşla iki quş vurmaq" istəyir; Amerika kəşfiyyatı isə Trampın Rusiya ilə əlaqələrini araşdırmağa başlayıb...

**Dünyanın ən qüdrətli dövlətinin - ABŞ-ın 1-ci şəxsini müəyyən edəcək prezident seçkisinə iki aydan da az vaxt qalır. Yəqin ki, rəqibləri tanıtmağa xüsusi ehtiyac yoxdur. Lakin ABŞ tarixində bəlkə də ilk dəfə prezident seçkisinin saxtalaşdırılacağı haqda ciddi ehtimallar səslənməkdədir. Musavat.com Rusiya və digər xarici mediaya istinadən bu qəbildən xəbərləri oxuculara təqdim edir.**

***



Hillari Klinton



Donald Tramp

ABŞ-ın Demokrat Partiyasının prezidentliyə namizədi Hillari Klinton Rusiyanın noyabrda keçiriləcək prezident seçkilərinə müdaxilə edəcəyini bəyan edib. ABŞ-ın nüfuzlu demokratlarının əksəriyyəti də eyni mövqedədir. Onların fikrincə, Moskva səslərin sayılması prosesinə qarışa bilər. Hillari Klinton öz tərəfdarları qarşısında çıxış edərək "Rusiyanın seçki prosesinə qarışması barədə mötəbər mənbələrdən ciddi məlumatlara malik olduğunu" bəyan edib. Namizədin fikrincə, Demokrat Partiyasının Milli Komitəsinin serverinin qırılaraq oradakı baza məlumatlarının Rusiyanın xüsusi xidmət orqanları tərəfindən yayılması onun dediklərini təsdiq edir.

Qeyd edək ki, Klinton öz seçicilərinə Trampın Rusiya hakerlərindən rəqibi haqqında kompromat xarakter daşıyan digər məlumatları da yaymağı xahiş etməsini xatırladıb. Doğrudur, Tramp sonradan bu sözləri zarafat xatirinə söylədiyini bildirmişdi.

Rusiya prezidenti Vladimir Putin isə öz dövlətinin bu məsələ ilə heç bir bağlantısının olmadığını bildirərək, iddiaları rədd edib. Bununla belə, ABŞ-ın nüfuzlu "Washington Post" qəzetinin yazdığına görə, hazırda ABŞ kəşfiyyatı Trampın Rusiya ilə əlaqələrini araşdırır.

ABŞ hakimiyyət orqanları təhqiqatın gedişatı barədə informasiya verməkdən boyun qaçırsa da, təhqiqatın Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru general Ceyms Klepperin şəxsən kurasiyasında olması məsələnin ciddiliyindən xəbər verir. Qeyd olunur ki, Vaşinqtonda Rusiya xüsusi xidmət orqanlarının kiber casusluqdakı fəaliyyət ehtimalı yüksək qiymətləndirilir.

**"ABŞ-da Rusiyanın tənəzzüldə olduğu danışılsa da, kiber təhdidlər barədə söhbət düşəndə məlum olur ki, Rusiya bu sahədə rəqabətə davamlıdır, Çindən daha böyük imkanlara malikdir və bu sahədə daha yüksək səviyyədə əməliyyatlar keçirməyə qadirdir"**, - deyə Ağ Ev yanında Atlantik Şuranın analitiki Metyu Berrouz gazeta.ru-ya müsahibəsində bildirir.

Bir sıra ekspertlərin rəyincə, hakerlərin kütləvi hücumu nəticəsində seçicilərin siyahısı təhdid altında ola bilər. Avqustda FTB bəyan edib ki, naməlum hakerlər prezident Barak Obamanın doğma İllinoys ştatının seçicilərinin siyahı bazasına daxil ola biliblər. FTB bu məsələdə Rusiyanın əli olduğuna dair şübhələrini gizlətmir.

Öz növbəsində ABŞ Senatında Demokrat Partiyasının fraksiya rəhbəri Harri Rid FTB-yə deputat sorğusu ilə müraciət edərək, Rusiyanın noyabr seçkilərinə olan müdaxiləsinin mümkünlüyünün yoxlanılmasını istəyib. Sorğuda Moskvanın "seçkilərin nəticələrini saxtalaşdıra biləcəyi" barədə qeyd əks olunub. Senatorun sözlərinə görə, onunla söhbət aparan kəşfiyyat strukturları Putinin seçkilərə müdaxiləsi barədə informasiyaları təsdiqləyir. Ekspertlərin fikrincə, belə bir təhdid üçün kifayət qədər əsas var. Məsələn, hakerlər internet yolu ilə səs verən seçicilərin səslərini dəyişdirə bilərlər. Bunu hər yerdə etmək mümkün olmasa da, səs fərqinin cüzi olduğu kritik ştatlarda həyata keçirmək mümkündür.

Siyasi analitiklərə görə, Rusiya bununla "bir daşla iki quş vurur": bir yandan, öz xeyrinə olan namizədin seçilməsinə nail olur, digər yandan isə ABŞ-da seçkilərinin saxta və qeyri-legitim olduğu barədə həm öz vətəndaşları arasında, həm də bütün dünyada rəy yaradır. Hazırda Tramp reytinqlərdə Klintondan bir az irəlidə görünür. (45%-43%) Lakin oktyabrda rəqiblər arasında keçiriləcək debatlar seçkinin nəticələri üçün həlledici ola bilər.

Seçki prosesinə təsir edəcək və sürpriz sayıla biləcək hadisələrdən biri də ABŞ-ın Ukrayna və Suriya məsələlərində Rusiya ilə kompromisə gəlmək variantıdır. Lakin Kremldə başa düşülər ki, bu məsələ həm daxili, həm də xarici siyasət məsələlərində Obamanın birbaşa varisi hesab edilən Klintonun işinə yarayacaq.

❑ **Vaqif HÜSEYN**

# Azərbaycan daha bir NATO ölkəsi ilə həmsərhəd olur

## Gürcüstan alyansa üzvlük yolunda inamla irəliləyir; Rusiyanın işğal etdiyi gürcü torpaqları geri qaytarıla bilər; **Şahin Cəfərli:** "Qərb Gürcüstanın üzvlüyə qəbulu üçün əlverişli məqamın yetişməsini gözləyir"

**Gürcüstan addım-addım NATO-ya yaxınlaşır. Tiflisdə NATO-nun qərarverici orqanı - Şimali Atlantika Şurasının və NATO-Gürcüstan Komissiyasının iclaslarının keçirilməsi qonşu ölkəni bir az da nüfuzlu beynəlxalq quruma yaxınlaşdırıb.**

APA-nın məlumatına görə, komissiyanın iclasında çıxış edən NATO baş katibi Yens Stoltenberq Qara dəniz regionunun təhlükəsizliyi və Gürcüstana hərtərəfli dəstək paketinin həyata keçirilməsi üzrə bir sıra məsələlərin müzakirə olunacağını bildirib. "NATO-Gürcüstan Komissiyası tərəflər arasında siyasi dialoq və əməkdaşlıq üçün forum kimi 2008-ci ildə yaradılıb. Biz Qara dəniz regionunda təhlükəsizlik məsələlərini və əhatəli şəkildə işlənib hazırlanmış dəstək paketində göstərilən məsələləri müzakirə edəcəyik. Bu paket 2014-cü ildə NATO-nun Uels sammitində irəli sürülüb və bu ilin iyulunda keçirilmiş Varşava sammitində gücləndirilib. Müttəfiqlər Gürcüstana dəstəyi gücləndirmək qərarına gəliblər. Gürcüstan NATO üzvlüyünə hazırlıq üçün bütün praktik mexanizmlərə malikdir və müttəfiqlər bu yolda ona yardım göstərməyə hazırdır" - baş katib deyib.

**Gürcüstanın baş naziri Georgi Kvirikaşvili isə qeyd edib ki, NATO-ya qoşulmaq gürcü xalqının qəti iradəsidir:** "Hökumət bu iradənin gerçəkləşməsi üçün hər şeyi edir. Bu görüş Varşavada keçirilən NATO sammitinin mühüm hissəsidir və Gürcüstanın müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə, ölkəmizin üzvlüyə hazırlanmasına yönəlib".

Son gəlişmələrdən sonra Gürcüstanın ərazi bütövlüyü məsələsi gündəmə gəlib. Bəzi ekspertlər hesab edir ki, 2008-ci ildə Rusiyanın təcavüzünə məruz qalaraq Cənubi Osetiya və Abxaziyanı itirən Gürcüstan NATO-ya üzv olarsa, bu ərazilər geri qaytarıla bilər. Azərbaycanın Türkiyənin ardınca daha bir NATO ölkəsi ilə həmsərhəd olacağı da ölkəmiz adına yüksək dəyərləndirilir.

**Politoloq Şahin Cəfərli Gürcüstan üçün NATO qapılarının 8 il öncə, alyansın Buxarest sammitində açıldığını bildirdi:** "Lakin həmin il baş verən Cənubi Osetiya müharibəsi və Rusiyanın hərbi müdaxiləsi Gürcüstanın üzvlük prosesini xeyli ləngitdi. NATO-nun 2014-cü il Uels və 2016-cı il Varşava zirvə toplantılarından sonra Gürcüstanın ittifaqa qoşulması prosesində sürətlənmənin baş verdiyi göz önündədir. NATO-Gürcüstan komissiyasının fəaliyyətinin aktivləşməsi, Gürcüstanın alyansa inteqrasiyası üçün dəstək paketinin qəbul olunması, Tbilisidə NATO-nun Təlim və Qiymətləndirmə Mərkəzinin açılması, Gürcüstan ordusu ilə NATO ölkələri əsgərlərinin birgə təlimlərinin intensivləşməsi, NATO ekspertlərinin Gürcüstanda hərbi islahatların həyata keçirilməsində məsləhətçi qismində iştirakı, NATO-nun qərarverici orqanı olan Şimali Atlantika Şurasının Tbilisidə iclas keçirməsi və digər faktlar Gürcüstanın hərbi-siyasi bloka üzvlüyü yolunda mühüm praktik addımlardır. Bunlar üzvlük üçün hər iki tərəfdə siyasi iradənin mövcud olduğunu göstərir".



**Politoloq Rusiyanın etirazına baxmayaraq, Amerikanın NATO-dakı üzvlərin sayının artmasında maraqlı olduğunu da qeyd etdi:** "Rusiyanın etirazlarına baxmayaraq, NATO rəhbərliyi və ittifaqın lideri ABŞ genişlənmənin davam edəcəyini dəfələrlə bəyan ediblər. Hazırda 29-cu üzv qismində Monteneqronun üzvlüyə qəbulu prosesi başlayıb və müvafiq prosedurlar həyata keçirilir. Növbədə Bosniya-Herseqovina, Albaniya və Gürcüstandır. NATO üzvlüyü təkcə hərbi sahənin alyansın standartlarına uyğunlaşdırılması yox, eyni zamanda demokratiya, insan haqları, qanunun aliliyinin təmin olunması istiqamətlərində də yüksək standartlar tələb edir. Bu baxımdan, NATO Gürcüstandakı hərbi islahatlarla yanaşı, siyasi islahatlara və demokratikləşməyə də böyük önəm verir. Təsadüfi deyil ki, alyansın baş katibi Yens Stoltenberq Gürcüstanda qarşıdakı parlament seçkilərinin tam demokratik şəraitdə keçirilməsinin, eləcə də mətbuat azadlığının vacibliyini xüsusi vurğulayıb. Çünki qonşu ölkədə son vaxtlar bu sahələrdə müəyyən problemlər müşahidə olunur. Baş katib bu bəyanatı ilə Gürcüstan rəhbərliyinə "gözümüz üzərinizdədir" mesajını verib. Üzvlük üçün siyasi meyarların yerinə yetirilməsi ən azı hərbi sektorun islahatları qədər, hətta ondan daha önəmlidir".

**Ş.Cəfərli Gürcüstanla bağlı məsələdə Rusiya amilinin mühüm rol oynadığını söylədi:** "Bunu bəzi NATO ölkələri də gizlətmir. Qərb Gürcüstanın üzvlüyə qəbulu üçün əlverişli məqamın yetişməsini gözləyir. Elə bir məqam yetişməlidir ki, Gürcüstanın NATO-ya qəbulu Rusiyanın bu ölkəyə qarşı yeni aqressiv addımlarına səbəb olmasın. Rusiya Gürcüstanın avroatlantik inteqrasiyası ilə barışmalı, ən azı praktik müstəvidə buna ciddi etiraz etməməlidir ki, proses ağrısız gerçəkləşsin. Mən düşünürəm ki, Qərbin Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində Rusiyanın dominant rolunu qəbul etməsinin səbəblərindən biri də Moskvanın Gürcüstana qarşı iştahını azaltmağa nail olmaq niyyətindən qaynaqlanır. Yəni, Qərb Rusiyanın Ermənistanı öz orbitində saxlamağa davam etməsi ilə razılaşır və Azərbaycandan strateji seçim tələb etməyərək rəsmi Bakının Moskva ilə yaxın münasibətlərinə göz yumur, bunun əvəzində isə Kremlə Gürcüstanın avroatlantik inteqrasiyasına mane olmamaq yönündə mesaj verir *(Söhbət hazırkı mərhələdən gedir, bu siyasət yaxın gələcəkdə dəyişə də bilər)*. Gürcüstandakı işğal probleminə gəldikdə isə, Qarabağ məsələsindən fərqli olaraq, Qərb bu məsələdə birmənalı mövqe tutur. Abxaziya və Cənubi Osetiya Gürcüstanın ayrılmaz tərkib hissəsi sayılır və Rusiyadan bu əraziləri müstəqil dövlət kim tanımaqdan vaz keçməsi tələb edilir. Güman ki, bu məsələ yaxın illərdə Qərb-Rusiya dialoqunda əsas mövzulardan birinə çevriləcək".

❑ **Cavanşir ABBASLI**

# Azərbaycan siyasətçiləri Rusiyadakı seçki marafonunu dəyərləndirdi

## Qonşu ölkədə parlament seçkilərinə 9 gün qaldı-Putin yenə qalib gələcəkmi?




**Rusiyada keçiriləcək parlament seçkilərinə sayılı günlər qaldı. Sentyabrın 18-də qanunverici orqanın aşağı palatası olan Dövlət Duması formalaşacaq. Dumada 450 deputat yeri var ki, bunlardan 225-i proporsional, bir o qədər də majoritar sistem üzrə seçiləcək.**

Siyasi texnoloqlar hesab edir ki, Dövlət Dumasına 4 partiyanın mandat əldə etmək imkanı var. Bunlar hazırda Dövlət Dumasında təmsil olunan Vahid Rusiya, Rusiya Kommunist, Ədalətli Rusiya, Liberal Demokrat partiyalarıdır. Vahid Rusiya, Rusiya Kommunist, Liberal Demokrat partiyalarının Dövlət Dumasına düşəcəyini respondentlərin hamısı proqnozlaşdırır. Ədalətli Rusiya Partiyasına isə siyasi texnoloqların 70%-i şans verir.

**Politoloq Qabil Hüseynli** hesab edir ki, hazırda Rusiyada əsas diqqət Vahid Rusiya Partiyasının əhali arasında nüfuzunun artmasına və seçkilərdə qələbə qazanmasına yönəlib: "Rusiyada əhval-ruhiyyə fərqlidir, yəni əvvəlki illər kimi deyil. Sanksiyalar, neftin qiymətinin aşağı düşməsi və digər məsələlər Rusiya iqtisadiyyatında neçə illərdir artımın qarşısını alır. Bu da insanların maddi rifah halına mənfi təsir göstərir. Putinin də, hakim partiyanın da nüfuzu müəyyən qədər aşağı düşüb. Amma bütün bunlara baxmayaraq, inzibati resursların hesabına bu dəfə də Vahid Rusiya partiyası seçkilərdə qələbə qazanacaq. Səslərin ən aşağısı 60-62%-ni toplayacaq. Rusiya elə bir ölkədir ki, burada seçkilərin tam şəffaflığını təmin etmək mümkün olmur. Seçki prosesinə müəyyən hiylələr qatılır. Tam olmasa da, "karusel sistemi" orada da var. Seçki gününün sonuna yaxın qutulara artıq səslərin atılması Rusiyada da var. Amma hər halda, Rusiya MDB məkanında seçkilərin obyektiv keçirildiyi dövlətlərdən biridir. Ona görə də seçkilərdə seçicilərin səslərinin qazanılması uğrunda ciddi mübarizə gedir. Bu mübarizənin başında duran da ilk növbədə Putindir. Avropa ölkələri şimal qonşumuzdakı seçki prosesini bu dəfə izləyə bilməyəcəklər. Ona görə də Putin hakimiyyəti seçkiləri rahat keçirəcək və istədiyi nəticələri əldə edə biləcək".

**Politoloq Azərbaycanın Rusiyadan seçki örnəyi götürməməsinə bu cür şərh verdi:** "Rusiyada xalq fəaldır, siyasi proseslərdə iştirak edirlər. Siyasi partiyalar siyasi mühiti fəallaşdırırlar. Biz Rusiyadan demokratik seçki mühitini öyrənməyə çalışırıq. Amma Azərbaycan xalqının siyasi fəallığı arzuolunan səviyyədə deyil. Siyasi partiyalar seçki monitorinqini düzgün təşkil edə bilmirlər. Əhali arasında "mənim səsim nəyi dəyişəcək" düşüncəsi var və buna əsasən, seçki fəallığı aşağıdır. Halbuki hər kəs seçkilərə getsə, neqativ halların qarşısı alına bilər. Əgər neqativ hallar varsa, bu, insanların seçkiyə getməməsindən, seçki prosesində passiv olmamalarından qaynaqlanır. Burada siyasi partiyaların da müəyyən günahları var".

**Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa Rusiyadakı hər hansı bir qurumla təmaslarının olmadığını bildirdi:** "Demokratik atmosfer olmadığı üçün Rusiyadakı hər hansı bir qurumla təmasımız yoxdur. Çünki imperiya xəyalları hələ ortadan qalxmayıb. Amma bütövlükdə hesab edirəm ki, xüsusi bir yenilik olmayacaq. Köhnə formatı parlamentdə tətbiq etməyə çalışacaqlar. İndiki şəraitdə Rusiyanın yenilənməsi müşahidə olunmur. Yenə də əvvəlki qüvvələrin müəyyən səs faizi ilə parlamentdə yerləşmələri təmin olunacaq. Müxalifət daha çox sosial şəbəkə üzərindən təşkilatlanır. Proporsional sistem daha çox hakimiyyət partiyasına xidmət edəcək. Çünki hakim partiyanın bu sistemlə qələbə qazanmaq imkanları daha yüksək olur. Amma majoritar sistemdə ola bilsin ki, fərdi şəkildə müəyyən şəxslərin uğur qazanmaq imkanları olsun. Amma bu da ümumi mənzərəni dəyişməyəcək".

**YAP-ın Nəsimi rayon təşkilatının sədri, deputat Məlahət İbrahimqızı Vahid Rusiya Partiyasından olan bəzi deputatlarla yaxın əlaqələrinin olduğunu söylədi:** "Rusiya bizim üçün əhəmiyyətli, yaxın dost olan ölkədir. Birgə yaşayışımız, tarixi bağlantılarımız var. Orada çoxsaylı vətəndaşlarımız var. Unutmaq olmaz ki, dünyanın aparıcı ölkələrindən biridir. Arzum odur ki, seçki əmin-amanlıqla keçsin. Biz xalqın siyasi iradəsinə iqtidar partiyası olaraq hörmət edirik. Vahid Rusiya Partiyasından olan millət vəkilləri arasında yaxın dostlarım var. Qadın deputatlarla yaxın əlaqələrim mövcuddur. Onlara uğurlar arzulayıram".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 200 (6521) 9 sentyabr 2016

**Ölkədə sentyabrın 26-da keçiriləcək ümumxalq referendumuna hazırlıq gedir. Bu prosesə ən ciddi hazırlaşan isə iqtidarda olan Yeni Azərbaycan Partiyasıdır. "Yeni Müsavat"ın müxbiri YAP-ın referendum hazırlıqları ilə tanış olmaq üçün partiyanın mərkəzi qərargahına baş çəkib.**



# "Müxalifət hələ bilmir ki, monarxiya nədir, respublika nə..."

## Siyavuş Novruzov: "Əgər bir partiya 5 milyon seçicinin 0,1 faizindən imza toplamağı bacarmırsa..."

*İlk baxışdan partiyada səssizlik hökm sürürdü. Demək olar ki, qərargahda kimsə gözə dəymirdi. Otaqlarda isə referendum təşviqat qrupunun kuratorları hazırlıqları davam etdirirdi. Dediklərinə görə, hər gün yerlərdə seçicilərlə 4-5 görüş keçirirlər. İşlər əsasən yerlərdə aparılır, partiyada isə ancaq plan və proqramlar hazırlanır. Bu mənada elə də qaynar iş mühiti nəzərə çarpmırdı. Partiyada bizi YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov qarşıladı və referendum hazırlıqları, ölkədə gedən ictimai-siyasi proseslər və başqa mövzularla bağlı suallarımızı cavablandırdı.*

***- Siyavuş müəllim, partiyanın referendum hazırlıqları necə gedir?***

- Referendum aktı elan olunduqdan və cənab prezidentin Konstitusiya Məhkəməsinə müraciətindən sonra referendum üzrə biz öz plan və proqramımızı hazırladıq. Yeni Azərbaycan Partiyası təşəbbüs qrupu yaratdı və təşəbbüs qrupunun toplantıları keçirildi. Daha sonra onun təşviqat qrupu kimi fəaliyyət aparması ilə əlaqədar olaraq, müvafiq sənədlər həm Seçki Məcəlləsinə, həm də Mərkəzi Seçki Komissiyasının tələblərinə uyğun olaraq toplanıb hazırlandı. Ondan sonra biz 50 minə yaxın imza toplayıb MSK-ya təqdim etdik. Onlar da sənədlərimizi yoxladılar və qanunauyğun olduğunu müəyyən etdikdən sonra təşviqat qrupu kimi qeydiyyata aldılar. Ondan sonra vəkillər təyin olundu və ayın 3-dən təbliğat-təşviqat kampaniyasına başladıq. Hər bir yerdə, bütün bölgələrdə bu kampaniyaya start vermişik. Gündəlik olaraq, təşviqat qrupunun nümayəndələri tərəfindən 20-25 tədbir keçirilir. Orada YAP-ın Siyasi Şurasının üzvləri, partiyanın səlahiyyətli üzvləri, vəkil olmuş şəxslər, o cümlədən Milli Məclisdə bizi təmsil edən deputatlar hər bir tədbirdə iştirak edirlər. Sentyabrın 25-nə kimi bu proses davam edəcək.

***- Cəmiyyəti maraqlandıran əsas suallardan biri də budur ki, referendum zərurəti necə yarandı? Hakim partiyanın səlahiyyətli şəxslərindən biri olaraq, yəqin ki, sizin real səbəblərdən xəbəriniz var...***

- Bu sual hər kəsi maraqlandırır ki, zərurət nə idi. Ümumiyyətlə, dünyada konstitusiyanın qəbul olunması ABŞ-dan götürülüb, orada 200 ildən artıq tarixi var konstitusiyanın. Böyük Britaniyanın isə yazılı bir konstitusiyası yoxdur, orada hər saheni bir qanun qoruyur. Hər bir qanun da müəyyən müddət həyatda praktikadan keçməlidir. Dünya inkişaf edir, cəmiyyətimiz inkişaf edir, baxışlar, münasibətlər dəyişir və konstitusiyamız da, qanunlar da buna uyğunlaşdırılmalıdır. Azərbaycan bir çox beynəlxalq konvensiyalara qoşulub, iqtisadi və sosial inkişaf da tələb edir ki, konstitusiyada müəyyən dəyişikliklər edilsin. O baxımdan, bizim konstitusiya 1995-ci il 12 noyabrda qəbul olunduqdan sonra iki dəfə əlavə və dəyişikliklər etmişik. Bu, artıq üçüncüsüdür. ABŞ-ı misal çəksək, orada konstitusiya 7 maddədən ibarət qəbul olunmuşdu, 4 ildən sonra 12 maddədən ibarət əlavə və dəyişikliklər qəbul olundu, indiyə qədər 27 əlavə və dəyişiklik qəbul edilib. Hər bir xalqın milli dövlətçilik dəyərləri, mentaliteti ilə əlaqədar olaraq konstitusiya da o dövlətlərin idarəçilik sisteminə uyğunlaşdırılmalıdır. Bu baxımdan, bizdə də konstitusiyaya dəyişikliyə ehtiyac var idi. Bu məsələləri çox şişirdirlər və mən bunu bəzən başa düşə bilmirəm. Digər tərəfdən, müxalifətdən bir tutarlı hüquqşünas da orta çıxıb bu dəyişikliklərin ziyanlı cəhətlərini ortaya qoya bilmir. Ümumi fikir söyləyirlər, heç bir əsas da yoxdur. Burada əsas maddələr insan hüquq və azadlıqlarının qorunması, mülkiyyət münasibətləri ilə, bir də dövlət aparatının təkmilləşməsi ilə əlaqədardır. Konstitusiyanın 29 maddəsinə 39 əlavə və dəyişiklik nəzərdə tutulub. Onların böyük bir hissəsi də insan hüquq və azadlıqlarının qorunması ilə bağlıdır.

**"Referendumun keçirilməsinin Türkiyədəki qiyama cəhdlə heç bir əlaqəsi yoxdur"**

***- Müxalifət iddia edir ki, referendumda nəzərdə tutulan bəzi dəyişikliklər ölkədə demokratiyanı məhv etməyə yönəlib, bununla hakimiyyət ölkədə monarxiya qurmaq istəyir...***

- Monarxiya nədir, respublika nədir, hələ onlar özləri bunu başa düşə bilməyiblər. Əgər bir ölkədə hakimiyyət seçkilər əsasında formalaşırsa, hakimiyyətin qolları seçki yolu ilə seçilirsə, orada monarxiyadan heç bir söhbət gedə bilməz. Monarxiyanın özünün isə üç növü var: mütləq monarxiya, konstitusiyalı monarxiya və dualist monarxiya. Onlar heç bunu da bilmirlər. Monarxiya hakimiyyətin seçki olmadan formalaşmasıdır. Azərbaycan prezidentli respublika sistemidir. Artıq Türkiyə də bu sistemə keçdi və idarəçilik sistemini dəyişdi. Bunlar beynəlxalq hüquqda, dövlət və hüquq nəzəriyyəsində yazılmış qanunlardır. Sadəcə, kitabı götürüb oxumaq lazımdır. O zaman görərsiniz ki, bunun monarxiyaya aidiyyəti yoxdur, sadəcə, dövlət aparatının təkmilləşdirilməsindən söhbət gedir.

***- Siyavuş müəllim, bu referendum məsələsi Türkiyədə çevrilişə cəhddən sonra ortaya çıxdı və bu ardıcıllıq insanlarda müəyyən suallar yaratdı ki, hökumət qardaş ölkədə baş verənlərdən dərs çıxartdı, hakimiyyət strukturunu möhkəmləndirmək üçün referenduma gedir və sair...***

- Yox, qəti şəkildə belə deyil. Bu, təsadüf nəticəsində eyni vaxta təsadüf etdi. Türkiyədə çevriliş cəhdi ayın 15-də oldu, ayın 18-də isə konstitusiya ilə bağlı olan məsələlər Konstitusiya Məhkəməsinə göndərilmişdi. 3 günün içində bunu həll etmək mümkün deyildi. Türkiyədə ayın 18-də hələ qeyri-müəyyənlik var idi. Bu dəyişiklik, sadəcə, dövlət aparatının təkmilləşməsi, insan hüquq və azadlıqlarının qorunması məqsədi daşıyır. Biz keçən dəfə konstitusiyaya dəyişikliklər edəndə, orada bir maddə əlavə etdik ki, Azərbaycan sosial dövlətdir. Bu dəfə isə yeni bir maddə salındı - sosial ədalət prinsipinin qorunması. Sosial ədalət prinsipinin qorunması ən ali məqsədlərdən biridir. Burada həmçinin mülkiyyət məsələləri var. Düzdür, bunlar ayrı-ayrı qanunlarda var idi, ancaq konstitusiyada da olması onları bir qədər də qüvvətləndirir. Çünki bütün istinadlar konstitusiyayadır. Əsasən vitse-prezidentlik məsələsini qiymətləndirərkən deyirlər ki, Azərbaycanda monarxiya qurulur. Əgər seçicilər gəlib səs verib bu institutun yaradılmasını dəstəkləyəcəklərsə, bu, konstitusiyada öz əksini tapacaq, vitse-prezidentin təyin olunması cənab prezidentin səlahiyyətinə daxil olacaq. Bunun əleyhinə təşviqat aparırlar. Ancaq burada mənfi heç nə yoxdur, bu institut ABŞ-da, Bolqarıstanda, İranda var. Türkiyə ilə bağlı məsələyə gəlincə, dövlət quruluşunun necə olmasından asılı olmayaraq çevrilişə cəhd varsa, o olacaq. İstər monarxiya olsun, istər demokratiya... Konstitusiyanın dəyişdirilməsi bunun qarşısını ala bilməz.



**"Konstitusiyanın dəyişdirilməsi dövlət çevrilişlərinin qarşısını ala bilməz"**

***- Azərbaycanda referendum təşviqatı alternativsiz keçirilir. Qeydiyyatdan keçən təşviqat qruplarının 3-ü də dəyişikliklərin lehinədir. Konstitusiyaya dəyişikliklərin əleyhinə olan təşviqat qruplarının bəziləri qeydiyyata alınmadı, bəzilərinin üzvləri həbs edildi, məsələn, REAL-ın... Bu şəkildə, alternativ tərəf olmadan təşviqatın aparılmasına münasibətiniz necədir?***

- Bütün təşviqat qruplarının qeydiyyatdan keçməsi üçün münbit şərait yaradılıb. Sadəcə olaraq, o insanların sosial bazası və elektoratı yoxdur. Olmadığı üçün də onlar təşviqat qrupu yarada bilmirlər. Təşviqat qrupunun yaradılması üçün 40 min imza tələb olunur. Yəni 60 dairənin hərəsindən 100 imzadan az olmamaq şərtilə... Ölkədə isə 5 milyon seçici var, bu rəqəm 5 milyon seçicinin heç 0,1 faizi də deyil. Əgər bir partiya seçicilərin 0,1 faizinin səsini toplaya bilmirsə, hansı təşviqatdan danışır?! Onlar səbəbi özlərinə axtarmalıdırlar. Deyirsiniz REAL, o təşkilatda heç 30 nəfər adam yoxdur. Onlar virtual məkanda fəaliyyət göstərirlər, reallıqda fəaliyyətləri yoxdur. Milli Şura adında dərnək fəaliyyət göstərir, toplantı keçirdiklərinə dair məlumat yazırlar, ancaq iki-üç foto çəkib qoya bilmirlər, yayanda da köhnə fotoları yayırlar. Toplantı da keçirə bilmirlər, ya bir-biri ilə telefonla danışırlar, ya da Əli Kərimlinin evində toplaşırlar. Vəssalam. Bəzən Əli Kərimli bir bəyanat verir, onu Milli Şuranın adından yayırlar. Baxırıq ki, hansısa saytda, elə sizin musavat.com saytında hansısa məqaləni 100 min nəfərə yaxın adam oxuyur. Əgər bir məqaləyə 100 min adam reaksiya verirsə, 40 min imza toplamaq nə çətin şeydir. İnsanlar onlara etibar edirsə, onlar da düzgün mövqedən çıxış edirlərsə, kifayət qədər imza toplaya bilərlər. Ancaq reallıqda onlara inam yoxdur. Həm öz daxillərində islahatlar apamırlar, həm də münasibətlərin, düşüncə tərzinin dəyişməməsi artıq onların deqradasiyaya uğramasından xəbər verir. Yoxsa onların qeydiyyatdan keçməsinə heç bir əngəl yoxdur. Vaxtında addım atmadılar, uzun müddət fikirləşdilər, sonra da qərar verdilər ki, bizi onsuz da qeydiyyatdan keçməyə qoymayacaqlar. Münəccimlik etmək əvəzinə gərək təşviqat qrupu yaradardılar.

***- Sizcə, müxalifət daxilindəki həbslər və təqiblər bu prosesdə onlara mane oldumu?***

- Həbslərin funksiyası tamam başqa idi. Azərbaycanda heç kim siyasi və ya dini baxışlarına görə həbs edilmir. Azərbaycanda bu və ya digər şəkildə cinayət törədən şəxslər var, o şəxslər də cinayət məsuliyyətinə cəlb olunurlar, biri vergidən yayınır, biri ictimai asayişi pozur, dələduzluq edir və ona görə də həbs olunur. Onu siyasiləşdirmək yersizdir. Məsələn, mən indi izləyirəm ki, Nardaran hadisələrində həbs olunmuş şəxslərin işini də siyasiləşdirmək istəyirlər. Halbuki həmin şəxslərin əməlləri dövlətçiliyə, dövlətin quruluşunu dəyişmək əleyhinə aparılan işlərdir. Orada həbs olunanların əksəriyyətinin Nardarana heç bir aidiyyəti yoxdur, oranın sakini deyil. Bəs orada nə gəzirlər, nə üçün yığışıblar? Orada da dərhal onları öyrədiblər ki, filankəslərin adını ver. Guya onların adını verəndə statusları dəyişəcək, yoxsa onlara münasibət dəyişəcək. Qəti şəkildə belə deyil. Azərbaycan xalqı gəlib səs verib konstitusiya qəbul edib və orada deyilir ki, Azərbaycan unitar, demokratik dövlətdir və burada din dövlətdən ayrıdır. Onun quruluşunu dəyişməyə kim cəhd göstərirsə, bu, dövlətçilik əleyhinə cinayətdir. Gedib hansısa dövlətdə bir-iki il oxuyub, sonra gəlib burada onların təlimatlarına əsasən dövlət quruluşunu dəyişməyə cəhd eləmək, heç kimə bağışlanmaz, istər nurçu olsun, istər sağçı, istər solçu olsun, ya vəhhabi, sələfi olsun.

***- Dini cərəyanlardan söz düşmüşkən, hazırda aktual məsələlərdən biri də "gülənçi"lərdir. Türkiyədəki hadisələrdən sonra məlum oldu ki, Azərbaycanda da, hətta yüksək vəzifələrdə nurçu və "gülənçi"lər var imiş... Hazırda hakimiyyət daxilində hər hansı təmizləmə aparılırmı? Yaxud aparılması nəzərdə tutulubmu?***

*(davamı növbəti sayımızda)*

**❑ Nərgiz LİFTİYEVA**
**Fotolar: Məğrur MƏRDİNDİR**

**"Müxalifətdən bir tutarlı hüquqşünas ortaya çıxıb bu dəyişikliklərin ziyanlı cəhətlərini ortaya qoya bilmir"**

YENİ MÜSAVAT
N 200 (6521) 9 sentyabr 2016

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Ermənistan güzəştlərdən qaçmaq üçün vaxt udmağa çalışır

## Sərkisyan rejimi Qarabağ məsələsində xarici təzyiqlərdən yayınmaqdan ötrü ölkə daxilində yeni siyasi oyunlara start verib; **rusiyalı politoloq:** "Azərbaycan haqlı olaraq, Moskvanın İrəvana təzyiqlərini gözləyir..."

**Dünən Moskvada Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı məsləhətləşmələr keçirilib. ATƏT-in Minsk Qrupu həmsədrləri - İqor Popov (Rusiya), Ceyms Uorlik (ABŞ) və Pyer Andrie (Fransa) növbəti dəfə bir araya gələrək münaqişənin dinc həll imkanlarını müzakirə ediblər. Məsləhətləşmələrə ATƏT sədrinin şəxsi köməkçisi Anjel Kaspşik də qatılıb.**

Moskva görüşü 4 günlük aprel müharibəsindən sonra konfliktin nizamlanması üzrə səylərin təzədən səngidiyi dönəmə düşməsi ilə daha çox əhəmiyyət kəsb edirdi. Elə dünənki müzakirələr də ən əvvəl bu kontekstdə aparılıb, prezidentlərin mayın 16-da Vyanada və iyunun 20-də isə Sankt-Peterburqda keçirilən görüşlərdə əldə olunmuş razılaşmaların reallaşdırılmasının gedişatına xüsusi diqqət yetirilib. Başqa sözlə, həmsədrlərin budəfəki görüşü Qarabağ məsələsində dinamikanın hərb, yoxsa sülh istiqamətində inkişaf edəcəyi ilə bağlı aydın simptomlar ortaya qoymalı idi.

*****

Bu müzakirələrdən ən çox Azərbaycanın ciddi dönüş gözləməyə haqqı çatır. Çünki işğal rejiminin daha bir neçə il uzadılması ən əvvəl ölkəmizin köklü maraqları ilə ziddiyyət təşkil edir. Rəsmi Bakı xüsusən də aprel döyüşlərindən, Azərbaycan əsgərinin status-kvonu dəyişməsindən sonra vasitəçi dövlətlərdən konfliktin nizamlanmasında, nəhayət, konstruktiv yanaşma və nəticə gözləyir.

"Əlbəttə ki, Azərbaycan yeni şəraitdə Qarabağ məsələsində irəliləyiş, o cümlədən bundan ötrü Moskvanın İrəvana təzyiqini gözləyir". Bunu rusiyalı tanınmış politoloq, beynəlxalq siyasət üzrə ekspert **Mixail Neyjmanov** danışıqlar ətrafındakı son durumu və Azərbaycanın haqlı gözləntilərini şərh edərkən deyib.

**Onun sözlərinə görə, son zamanlar Rusiya və Türkiyənin yaxınlaşması Güney Qafqazda Kremlə o cümlədən də Qarabağ məsələsində manevr üçün daha böyük imkanlar yaradır.** "Əgər Moskva Qarabağ məsələsində İrəvana təzyiq eləmək istəsə, bunun üçün onun potensial imkanları artmış olacaq" - ekspert qeyd edib.

**Lakin politoloq hesab edir ki, Ermənistan rəhbərliyi Dağlıq Qarabağ məsələsində güzəştdən yayınmaq üçün başqa arqumentlər ortaya ata bilər:** "Məsələn, rəsmi İrəvan deyə bilər ki, 2017-ci ilin aprelində ölkədə parlament seçkiləri keçiriləcək və üstəlik, həmin seçkilərdən sonra hökuməti parlament çoxluğu müəyyən edəcək *(Ermənistan gələn ildən parlamentli respublika idarəçiliyinə keçir və ölkədə əsas söz sahibi yeni parlamentin müəyyən edəcəyi baş nazir olacaq - red.)*"

**Rusiyalı analitikin fikrincə isə Moskva həmişə forpost Ermənistanda daxili siyasi qarışıqlığın qarşısını almağa çalışıb.** "Yada salaq, 2005-ci ildə enerji tariflərinin qiymətlərinin qalxacağı ilə başlanan etirazlardan sonra Rusiya rəhbərliyi sosial-iqtisadi məsələlərdə bu ölkəyə kömək etməyə hazır olduğunu bəyan eləmişdi... Fikrimcə, yəqin ki, yaxın zamanlarda Qarabağla bağlı kardinal irəliləyişə nail olmaq mümkün olmayacaq - hərgah, Moskva və digər beynəlxalq vasitəçilər tərəfindən gələcəkdə belə bir irəliləyiş üçün zəmin hazırlanması mümkündür", - deyə ekspert əlavə edib.

*****

Azərbaycanlı təhlilçilər də Sərkisyan rejiminin Qarabağ məsələsində vaxtı çatan güzəştlərdən yayınmaq və vaxt udmaq üçün müxtəlif yollar və bəhanələr axtardığı qənaətindədirlər. Ermənistanda bir müddət öncə gündəmə gələn və Serj Sərkisyan tərəfindən təklif edilən milli barışıq hökumətinin qurulması təklifi də eyni qəbildən bəhanə sayılır.

**"Ermənistan yenə böyük danışıqlardan öncə və Rusiyanın təşəbbüsü ələ aldığı bir ərəfədə müxtəlif hesablanmış gedişlər edir. Bunlardan biri hazırda Ermənistanda milli barışıq hökumətinin qurulmasına hazırlıqla əlaqədar gələn xəbərlərdir". Bu sözləri politoloq Arzu Nağıyev deyib (axar.az). Ekspert Ermənistanda milli barışıq hökumətinin gündəmə gətirilməsini növbəti siyasi şou adlandırıb:** "Oyun Sərkisyan və onun komandasının hakimiyyətdə qalmasına hesablanıb. Son zamanlar Sərkisyan Dağlıq Qarabağa səfər etməklə sanki öz günahlarını yumaq üçün və verdiyi müstəqillik sözünü yerinə yetirə bilmədiyindən müxtəlif addımlar atır. Əgər bu gün Qarabağ klanı hər hansı bir istiqamətdə addım atarsa da, Dağlıq Qarabağda vaxtilə səhra komandirləri olmuş şəxslər kimi qanun qarşısında cavab verməli olacaqlar. Buna görə də Sərkisyan növbəti seçkilərə qədər nəyin bahasına olursa-olsun, postunun müddətini uzatmağa can atır".




**Politoloqa görə, Sərkisyanın prezidentlik müddətinin milli konsensus hökuməti fonunda uzadılması planlaşdırılır:** "Ancaq düşünmürəm ki, Rusiya və Fransasız hər hansı addım atsınlar. Sərkisyanın növbəti seçkilərə qədər hakimiyyətini uzatmaq planı isə birbaşa Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsinə yönəlib. Bəlkə də Sərkisyan problemin həllini istəyir, ancaq sonluğun nə ilə nəticələnəcəyini bildiyindən bu addımı atmır".

Yada salaq ki, son günlər Ermənistanda milli barışıq hökumətinin qurulması məsələsi yenidən aktuallaşıb, baş nazir Ovik Abramyanın istefası söhbətləri qızışıb. Bu da istər-istəməz ictimai fikri Qarabağ mövzusu ətrafında gərginlikdən yayındırır. Rəsmi İrəvan bu yolla həmçinin müvəqqəti də olsa vasitəçi ölkələrin, xüsusən Rusiyanın diqqətini guya ölkədə daha mühüm hadisələrin baş verdiyinə yönəltməklə konfliktin həllindən yayınmağa çalışır.

*****

Ancaq çətin ki, bu üsullar gözlənilən nəticəni versin. Ən azı ona görə ki, üçüncü on illikdir ağır izolyasiya şəraitində olan, iqtisadiyyatı böhran yaşayan və sürətlə boşalan, bütünlüklə Rusiyadan asılı olan işğalçı ölkənin xarici təzyiqlərə müqavimət potensialı, faktiki, qalmayıb.

"Ermənistanda iqtisadi inkişafın mövcud olmaması, demokratikləşmədə yetərsizlik və yüksək səviyyədə miqrasiya bu ölkəni Rusiyadan asılı vəziyyətə salıb". Belə qənaətlə Ermənistandakı son hadisələr - İrəvanda polis polkunun binasına hücumla bağlı baş verənlərə dair Vaşinqtonda təşkil edilmiş müzakirələrdə Atlantik Şurasının analitiki, diplomat Con Erbst çıxış edib (virtualaz.org). Corc Vaşinqton Universitetinin hüquq Məktəbi və Policy Forum Armenia tərəfindən təşkil edilmiş müzakirələrdə analitik deyib ki, daxili siyasi situasiya, Rusiyanın Qarabağ məsələsindəki mövqeyi və Moskvanın özünü Ermənistanın "baş geosiyasi müttəfiqi" elan etməsi bu ölkənin müxtəlif inkişaf istiqamətlərini müəyyən edir.

"Daxili siyasi sferada konservləşdirilmiş sabitlik təkcə ədalətsiz seçkilərin nəticəsi deyil, Ermənistan vətəndaş cəmiyyətinin seçimidir. Çünki əvvəllər vətəndaşlar hökumətin siyasətinə ciddi müqavimət göstərməyiblər" - Con Erbst deyib. Analitik əlavə edib ki, bir çox keçmiş sovet respublikalarından, o cümlədən vətəndaş cəmiyyətinin yaxşı inkişaf etdiyi Ukraynadan fərqli olaraq Ermənistan müstəqillik əldə etdikdən sonra ABŞ-dan əhalinin sayına nisbətdə ən çox yardım alan ölkədir. Lakin bu pullar vətəndaş cəmiyyətinin inkişafına gətirib çıxarmayıb. "Bu baxımdan, Qərb Ermənistana ciddi dəstək verib, qalanı isə erməni cəmiyyətinin işi idi"-analitik ardınca qeyd edib.

Polis polkunun binasını tutan silahlı qrupun hərəkətlərini şərh edən Erbst deyib ki, burada təkcə hakimiyyətdən narazılıq deyil, eyni zamanda Rusiyanın Qarabağ məsələsindəki mövqeyindən də narazılıq rol oynayıb. Amerikalı analitikin fikrincə, əgər "Sasna tsrer" hərəkatı mövcudluğunu saxlasa və gələcəkdə inkişaf etsə təkcə Ermənistanın daxili siyasətini deyil, ölkənin geosiyasi mövqeyini də dəyişdirəcək. Eyni zamanda Erbst hesab edir ki, bu ölkədə dəyişikliklər ancaq Ermənistanın Qarabağ məsələsində güzəştə hazır olması halında qeydə alına bilər.

**Diplomata görə, əgər Qarabağ məsələsində qarşılıqlı güzəştlərə hazırlıq nümayiş etdirilsə, Ermənistanda müsbət irəliləyişlər baş verəcək. O vurğulayıb ki, söhbət Qarabağda yaşayan ermənilərin hüquqlarına dair güzəştlərdən deyil, məhz ərazinin mənsubluğu məsələsində güzəştdən gedir.** "Bu cür qarşılıqlı güzəştlər Ermənistan üçün Türkiyə və Azərbaycanla münasibətlərdə yeni imkanlar açacaq, Rusiyanın Ermənistana təsirini azaldacaq", - deyə o sonda vurğulayıb.

*****

**Məsələ də ondadır ki, Ermənistan heç bir quru sərhədi olmayan Rusiya ilə yox, məhz iki əsas qonşusu - Azərbaycan və Türkiyə münasibətləri qaydaya salmaq barədə düşünməlidir. Çünki bu, baş vermədən Ermənistan düşdüyü ağır siyasi-iqtisadi böhrandan qurtula bilməyəcək. Yolu çoxdan bəlli...**

YENİ MÜSAVAT
N 200 (6521) 9 sentyabr 2016

# Turistlərin dollar problemi ciddiləşir

## Ekspertlər bildirirlər ki, ölkəyə gələn turistlərin valyuta dəyişməsində limit olmamalıdır, xüsusi qaydalar tətbiq edilməsi vacibdir

**Ölkə banklarının xarici valyuta satmaması gələn turistlərlə bağlı da problemlər yaradır. Ölkəyə gələn turistlər gedərkən istifadə etmədikləri manatı banklara geri qaytara bilmirlər. Artıq bununla bağlı sosial şəbəkələrdə faktlar səslənməkdədir. Ekspertlər isə bildirirlər ki, bəzi valyuta siyasəti sərt olan ölkələrdə turistlər üçün xüsusi qaydalar tətbiq edilir. Ölkəyə gələn turist xarici valyutanı bankda çevirərkən aldığı çeki ölkəni tərk edən zaman istənilən banka göstərib istifadə etmədiyi valyutanı yenidən dəyişə bilər.**



**Ekspert Əkrəm Həsənov** musavat.com-a açıqlamasında bildirib ki, indiki halda turistlər üçün bəzi istisnalar olmalıdır: "Əks halda, ölkəyə heç kəs gəlməyəcək. Artıq bizdə bir neçə faktlar var, xaricilər gəlib Azərbaycanda manat alır, çıxanda əlində qalanı dollara dəyişmək istəyəndə, dəyişə bilmir. Bu, ölkə haqqında pis fikir formalaşdırır. Hər halda, ümid edirəm ki, Azərbaycan Belarusiya kimi, Özbəkistan, Venesuela kimi olmayacaq ki, biz də gedib banklardan dollar ala bilməyək. Ümid edirəm ki, son həftələrdəki vəziyyət çox çəkməyəcək. Əvvəl-axır, ayın sonuna kimi bitəcək, əvvəlki qaydada hər şey sərbəst olacaq. Bu zaman devalvasiyadan qaçmaq mümkün deyil. Buna çalışmaq da lazım deyil. Rusiyadakı kimi bizdə də gərək milli valyutamızın dəyərini bazar müəyyən etsin. Devalvasiya obyektiv zərurətdirsə, olsun. Zorla saxlayıb, dollar satmırlar, "qara bazar" fəaliyyət göstərir, turistlər pulu dəyişə bilmir, turistlərdən də qabaq özümüz edə bilmirik. Burada fərq qoymaq lazım deyil əslində. Yeni turistlər pulu dəyişsin, biz yox. Dövlət ilk növbədə öz vətəndaşlarına xidmət etməlidir və dollar da məhdudiyyətsiz dəyişdirilməlidir. Devalvasiya etmək lazımdırsa, olsun. Amma sırf dövlət təhlükəsizliyi nöqteyi-nəzərindən valyuta ehtiyatlarımız azalsa, turistlər üçün xüsusi hal tətbiq edilə bilər. Dövlət deyir ki, bu gün 40 milyarda yaxın ehtiyatımız var. Bu ehtiyatı varsa, mən bugünkü məhdudiyyətlərə ehtiyac görmürəm. Amma sabah birdən əgər valyuta ehtiyatlarımız kəskin azalsa, iqtisadi təhlükəsizlik baxımından dollar satmaq mümkün olmasa, yalnız bu halda zərurət görərdim ki, turistlər üçün bu qayda tətbiq edilsin. Əgər ölkəyə girəndə valyuta dəyişiblərsə, çıxanda eyni valyutanı ala bilsinlər. Onlara bizim vətəndaşlara nisbətən üstünlük verilsin. İndiki vəziyyətdə bu ehtiyacı görmürəm, turistlər də, ölkə vətəndaşları da dollar ala bilmələdir".

**Ekspert Elşad Məmmədov isə musavat.com-a deyib ki, son günlər dollar və avronun əldə edilməsi ilə bağlı problemlər ardıcıl baş vermiş manatın devalvasiyaları səbəbindən müşahidə olunan turist axınının artımına öz mənfi təsirini göstərməkdədir:** "Belə ki, turistlərin əldə etdikləri manatları ölkələrinə dönərkən yenidən dollara və avroya çevirməsi onlar üçün əsl problemə çevrilib. Maliyyə sektorundakı bu çətin vəziyyət ölkənin digər makro və mikro iqtisadi göstəricilərinə etdiyi mənfi təsirlə yanaşı turizmin inkişafında da neqativ fəsadların formalaşmasına səbəb ola bilər".

**Ekspertin sözlərinə görə, bu istiqamətdə yarana bilən problemləri bir neçə məzmunda qruplaşdırmaq olar:** "Dollar və avronun sərbəst satışının qanuni şəkildə kifayət dərəcədə həyata keçirilməməsi, bu prosesin qara bazara transferi, onsuz da bu sahədə mövcud olan ciddi beynəlxalq rəqabət şəraitində ölkənin rəqabət üstünlüklərinin artmasına xidmət etmir. Həmçinin ölkəyə daxil olan turistlər dolların və avronun əldə olunmasında problemlərin mövcudluğu barədə, sözsüz ki, məlumatlı olduqları üçün ölkəyə gələrkən, maksimum dərəcədə az həcmdə dollar və avronu manata çevirməyə çalışacaqlar. Bu da onların ölkəyə səyahətlərinin milli iqtisadiyyatımız üçün effektini minimuma endirə bilər".

**E.Məmmədov qeyd edib ki, turist axınının son aylarda artımına baxmayaraq, ölkənin bu sahədən əldə etdiyi gəlirlər hələ regional turizm mərkəzlərinə çevrilmiş ölkələrin turizmdən əldə etdiyi gəlirlərdən xeyli azdır:** "Yeni beynəlxalq, o cümlədən regional turizm bazarları kifayət qədər formalaşmış bazarlardır. Formalaşmış bazarlara daxil olmaq isə yeni bazarlarda iştirakdan həmişə daha çətin olur. Bu baxımdan, bu formalaşmış bazarda yeni iştirakçı olan Azərbaycan turizm sektoru üçün öz iştirakına milli valyutasının azad konvertasiya olunmasında olan problemlərlə başlamaq arzuolunmazdır. Ölkədə turizmin inkişafının prioritet istiqamət olması hökumət tərəfindən qəbul edilib. Bu, ilk növbədə bu sahənin ölkəyə valyuta axını baxımından perspektiv və nisbətən qısa müddətdə effekt verə bilən sahə olması ilə izah olunur. Belə olan halda, yeni maliyyə sabitliyinin formalaşmasında, ölkədə aparıcı xarici valyutaların, dollar və avronun təklifinin artmasına və beləliklə, maliyyə sabitliyinə xidmət edən bu sahənin inkişafına mane olmaqla, əslində valyuta satışında mövcud olan hazırkı problemlər dollar və avronun ölkəyə axınının artımına maneçilik törədərək maliyyə bloku tərəfindən qoyulan əsas məqsədə, manata təzyiqin azalmasına xidmət etmir".

❑ Röya RƏFİYEVA

# ABŞ Rusiya şirkətlərini sanksiyalarla boğur

## Ekspertlər bildirirlər ki, daha 81 şirkətə sanksiya qoyulması Rusiya- Türkiyə yaxınlaşması ilə bağlı ola bilər

**ABŞ Rusiyaya qarşı sanksiya siyahısını daha da genişləndirib. Birləşmiş Ştatlar Rusiyanın Şərqi Ukraynada separatizmi dəstəkləməyə davam etdiyini səbəb göstərərək rus şirkətlərinə tətbiq etdiyi sanksiyaları artırıb. Qərara görə, ABŞ-ın Ticarət Nazirliyi qara siyahıya 81 rus şirkətini əlavə edib. Açıqlamada sanskiyaların genişləndirmə qərarının Rusiyanın Şərqi Ukraynadakı beynəlxalq hüquq pozuntularına cavab olaraq verildiyi və mövcud sanksiyaların təsir gücünü artırmaq mahiyyəti daşıdığı qeyd edilir.**




Bu şirkətlərdən 50-si Rusiyanın qaz nəhəngi "Qazprom"un nəzarətindədir. Sanksiyalar Krıma çəkilən Kerç körpüsünün baş inşaatçısı «SGM-Most» şirkətinə də şamil ediləcək. Bu şirkət Vladimir Putinin dostu Arkadi Rotenberqin "Stroyqazmontaj" şirkətlər qrupuna daxildir. Sanksiyalar sentyabrın 7-dən qüvvəyə minib.

Xəbər verilir ki, sanksiyalar siyahısına daxil edilmiş şirkətlərin hamısına ticarət məhdudiyyətləri qoyulacaq. Qara siyahıya əlavə edilən şirkətlərin 75-i Rusiyada fəaliyyət göstərir, digərləri isə Honkonq, Hindistan və Krımda fəaliyyət göstərən rus sərmayəli şirkətlərdir.

**Ekspert Vüqar Bayramov məsələ ilə bağlı musavat.com-a bildirib ki, bu addımın atılmasına xeyli səbəblər var:** "ABŞ sanksiyalar tətbiq etməsini Rusiyanın Krımı işğal etməsi və özünə birləşdirməsi ilə izah edir. Nəzərə alsaq ki, sanksiyalara yalnız ABŞ deyil, eyni zamanda Avropa Birliyi ölkələri də qoşulub. ABŞ daimi olaraq sanksiyaların dövriliyini və siyahısını yoxlayaraq siyahının artırılması ilə bağlı praktik olaraq qərar qəbul edir. Eyni zamanda baxmayaraq ki, Ağ Ev bildirib ki, Rusiyaya qarşı sanksiyaların aradan qaldırılması o halda mümkündür ki, Rusiya Krımın yenidən Ukraynaya qaytarılmasını təmin etsin. O baxımdan, müddətin uzadılması və daha çox sanksiyaların tətbiq edilməsi gözlənilən idi. Sözsüz, sanksiyaların qoyulmasında məqsəd Rusiyanın Krımı almasıdır. Amma eyni zamanda Rusiyanı zəiflətməkdir. Təbii ki, ABŞ xüsusən də Avrasiya regionunda güclü Rusiyanın olmasında maraqlı deyil. Zaman-zaman Birləşmiş Ştatların siyasəti Rusiyanın regionda zəifləməsinə nail olmaqdır. Çünki Amerika Birləşmiş Ştatları regionun Rusiyanın təsir dairəsindən çıxmasında da maraqlıdır".

**Ekspertin sözlərinə görə, Rusiyanın iqtisadi baxımdan zəifləməsi onun siyasi gücünü də azalda bilər:** "Bu baxımdan, təbii ki, Amerika Birləşmiş Ştatları sanksiyaların artırılmasında maraqlı tərəf kimi görsənir. Ona görə siyasi kanallar var. ABŞ Rusiyanın zəifləməsində maraqlıdır. Rusiya neft-qaz ölkəsi olaraq məhsulları satır. Rusiya sanksiyalara məruz qalır ki, o da özünü iqtisadiyyatında göstərir. Təsirlər var, ölkədən investisiya axır. Bu gün liberal məzənnəyə keçdikdən sonra müəyyən qədər sabitləşmə var, amma dəyər itirərək baş verdi. Əgər iqtisadiyyat zəifləyərsə, heç kim zəmanət verə bilməz ki, daha da zəifləməsi mümkün olmayacaq. Amma düşünmürəm ki, qısamüddətli dövrdə Rusiyanı iqtisadi baxımdan zəiflətmək mümkündür. Düşünürəm ki, mümkün deyil. Çünki regionda Rusiyanın bazarı var. Rusiya ixracatının 54 faizi neft idi, 14 faizi mavi qaz idi. Yeni ixracatda payının 68 faizi enerji idi, 32 faiz də qeyri-enerji məhsulları idi. Bu da əslində MDB-nin digər enerji ölkələri ilə müqayisədə yaxşı göstərici idi. Qeyri-neft sektoru məhsullarının da regionda bazarı var. Rusiya Çinlə əməkdaşlığı davam etdirir. MDB ölkələrində də bazarını qoruyub saxlayır. Ona görə də sanksiyalar Rusiya iqtisadiyyatına təsir edir, amma kəskin şəkildə deyil. Sanksiyaların qısa zamanda iqtisadi baxımdan onun Rusiyanın zəifləməsinə gətirəcəyini düşünmək doğru deyil. Rusiyanı iqtisadi baxımdan indi çökdürmək mümkün deyil, bu, illər tələb edən bir prosesdir".

**V.Bayramov vurğulayıb ki, əslində son dövrlərdə Rusiya-Türkiyə yaxınlaşması da sanksiyalara səbəb ola bilərdi:** "Bu, regionun gələcəyi üçün ciddi bir hadisə idi. Çünki Rusiya- Türkiyə yaxınlaşması iqtisadi baxımdan səmərəlidir. Rusiya və Türkiyənin yaxınlaşmasında Qərb maraqlı deyil. Rusiya- Türkiyə yaxınlaşması regionda güc mərkəzlərinin yaxınlaşmasına səbəb olur. Nəzərə alsaq ki, İranla Rusiya arasında da münasibətlər istiləşir. Azərbaycan, İran və Rusiya prezidentlərinin görüşü regionda artıq həm siyasi, həm də iqtisadi baxımdan yeni bir xəritə cızır. Ona görə də bu yaxınlaşmanın, Rusiya və Türkiyə yaxınlaşmasının nə siyasi, nə iqtisadi baxımdan Qərbin maraqlarına uyğun olmadığını demək mümkündür. Ona görə istisna edilmir ki, Rusiya- Türkiyə yaxınlaşması sanksiyaların sayının artırılmasına da təsir göstərir".

**Fikrət Yusifov isə musavat.com-a deyib ki, Amerika Birləşmiş Ştatlarının Ticarət Nazirliyinin təqdim etdiyi siyahıya əsasən, Rusiyanın 81 şirkətinə sanksiyalar tətbiq olunmağa başlayıb:** "Rusiya-Türkiyə münasibətlərində baş verən yaxınlaşmaların da bu sanksiyaların tətbiqində rolunu istisna etmək olmaz. NATO üzvü olan bir dövlətlə Rusiyanın belə yaxınlaşması ABŞ administrasiyasında qıcıq yaratmaya bilməzdi. Təbii ki, ABŞ Türkiyə- Rusiya yaxınlaşmasına münasibətini açıq şəkildə nümayiş etdirə bilməzdi. Bu yaxınlaşmaya olan qıcığın bir başqa formalarda nümayiş etdiriləcəyi gözlənilən idi. Sanksiyaların tətbiqi də məhz bu sırada dayanan məsələlərdən biri kimi görünür".

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 200 (6521) 9 sentyabr 2016




Cümə söhbətləri

# Allah bəndəsinin izzəti

**Bismilləhir-Rahmənir-Rahim!**
**Yaşadığımız zilhiccə ayı başdan-başa bəndəlik dərsləri ilə doludur. Bu fenomeni anlamaq üçün ən səmərəli yollardan biri - Əhli-Beytdən (ə) gələn dualara müraciət etməkdir. Bu mövzuda İmam Səccaddan (ə) gələn dualara keçən bəhslərimizdə toxunmuşuq. Burada söhbət Allah Təaladan izzətin istənilməsindən, izzətin nəsib olmasından gedirdi. O mövzuya da işarə olundu ki, Əhli-Beytdən (ə) nəql olunan mənbələrdə necə dua etmək, necə münacat etmək bir nümunə olaraq təqdim olunmuşdur.**



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

## İzzət istəməli

Sözügedən duadan məlum oldu ki, insanın Allahdan istəməli olduğu ümdə şeylərdən biri də izzət olmalıdır. Qeyd edilməli bir mühüm nöqtə də var ki, izzət - qazanılan bir şeydir. Kiməsə mirasla çatan, kiminsə hədiyyə edə biləcəyi, yaxud öz-özünə əmələ gələn bir şey deyil, insanın özünün əldə etməli olduğu bir kateqoriyadır izzət.

Bəhsdə o da vurğulandı ki, İlahi Kitabın 63-cü surəsinin 8-ci ayəsində izzətin Allaha, Onun Rəsuluna və iman əhlinə aid olduğu bildirilir. Eyni zamanda «izzət» anlayışının terminoloji açıqlamasına bildirildi ki, bu, bir halət, bir keyfiyyətdir ki, ona malik olan insanın məğlub olmasına, zəlil olmasına qarşı manеə rolunu oynayır. Yəni bu keyfiyyətin - izzətin dəfedicilik, maneedicilik bir xüsusiyyəti var hər bir şeydən ki, insanı məğlub edə bilər. Və izzətli insan, əziz insan odur ki, həmin bu məğlubiyyətə qarşı dəfedici halətə malik olur.

İzzətli insan - azaddır, qalibdir, izzətsiz isə məğlub və zəlil. İnsan ola bilər nəfsinin məğlubu olsun, şəhvətinin məğlubu olsun, qəzəbin, kinin, malın, sərvətin, vəzifənin zəlili olsun. Hətta ola bilər ki, bunların özünün də deyil, sadəcə bunlara doğru cəhdin, bunlara doğru istəyin məğlubu olsun. İzzətli insan isə bu əsirliklərdən qurtuluş tapmış olar.

Təbərrük üçün İmam Əlidən (ə) nəql edilən hədisə nəzər salaq. Həzrət (ə) buyurur: **«Şəhvətin köləsi pulla alınan kölədən daha zəlildir».**

Həzrət Əli (ə) müqayisəvi bir təhlil verir. Bildirir ki, insanların ən aşağıda olanı pulla alınıb-satılan kölə heçab olunur. Amma bir kəs ki, öz şəhvətinin quludur - hər bir müstəvidə - bu şəxs pulla alınmış kölədən daha zəlil durumdadır. Əgər insan öz nəfsinin mütisidir və özünü bu məğlub durumdan çıxara bilmirsə - ən aşağılanmış bir vəziyyətdədir.

Kölənin bir vəziyyəti var ki, o, müstəqil deyil. Onu almış insan onun sərəncamvericisi və sahibi olur, istədiyi ağır işdə onu işlədir. Bu kölə, onu pulla alan sahibinin istəyinə, əhval-ruhiyyəsinə bağlıdır, ondan asılıdır. Bənzətmə aparsaq, bir kəs ki, şəhvətinin quludur - onun ixtiyarı öz əlində deyil. O, öz şəhvətinin nə istəməsindən, necə istəməsindən, hansı halda olmasından asılı olacaq. Külək hansı istiqamətdə əsirsə, o da həmin səmtdə sürünəcək.

## İmanlılar cərgəsi

Əsiridir, zəlilidir şəhvətin o insan ki, iradəsini nəfsinə tabe edib. Məğlub olub ona. Sanki şəhvət gəlib bu insanı pulla satın alıb. Əmirəlmöminin (ə) insanlara çatdırır ki, pulla alınıb, hər necə gəldi istifadə olunan kölədən də aşağıdır şəhvətinə tabe olan. Bu insanda hər hansı bir izzətdən, alilikdən, ucalıqdan danışmağa dəyməz. İzzət isə məğlubiyyətlə yanaşı ola bilməz, zatən bununla müşayiət oluna bilməz. Adam əgər nəyinsə qulu olmaq vəziyyətinə düşərsə, o, izzət məqamına ucalmağı bacarmaz. Pulla alınan kölə izzətli ola bilər, amma şəhvətinin qulu olan - əsla.

Qeyd etdik ki, izzət Allaha, Onun Rəsuluna (s) və iman sahiblərinə aiddir. Bir adam ki, şəhvətinin quludur, başqa nəfsani, aşağılayıcı xislətlərin köləsidir - bu vəziyyətlə o, imanlılar cərgəsinə daxil ola bilməz. İman radiusundan çıxmış olur bu şəxs. İmanlılığın zəruri və kafi şərtlərindən biri - izzətlilikdir. Bir adam əgər şəhvətin, qəzəbin, digər bu kimi şeylərin qulu olsa, özünü imanlılar cərgəsindən kənarlaşdırmış olar.

İnsan əgər istəsə izzət əldə etsin, gərək heç nəyin qarşısında məğlub olmasın. Qarşısında əyilməli, özünü aşağı bilməli, təzəllül edilməli varlıq - yalnız və yalnız Uca Allahdır. İzzət sahibi Allahdan başqa heç nəyin qarşısında özünü aşağı bilməz, özünü zəlil bilməz. Yalnız Allaha pərəstiş edər izzət sahibi. Yalnız Ona baş əyər.

Allah qarşısında təzəllül etmək (zəlil durumda olmaq), özünü aşağı bilmək - izzətin zirvəsidir. Allahdan qeyri hər nəyin ki, insan əsiri, məğlubu olar, bu durum onu ən pis aşağılıqlaradək aparıb çıxara bilər. Bu yolun axırı - lənətlik iblisə qoşulmaqdır, əzaba qovuşmaqdır. Əql isə diktə edir ki, insan Allahdan savayı, onu yaradan, ona daim qəyyumluq edən, onu qoruyan mütləq qüdrətdən, qüvvədən savayı heç nəyə özünü təslim etməməlidir.

**Həzrət Əli (ə) buyurur: «Allahım! Mənim üçün bu izzət bəsdir və kifayətdir ki, Sənin bəndən olum. Və bu iftixar və fəxr bəsimdir və kifayətimdir ki, Sən mənim Rəbbim olasan, mənim Malikim olasan».**

İnsan daima özünə hesabat verməli və yada salmalıdır ki, həqiqi izzət Allaha bəndəlikdən keçir.

## Öz müqəddəratı insanın öz əlində

Bu, hansısa mücərrəd məsələlər deyil. Gündəlik həyata nəzər salsaq, görərik ki, bu, addımbaşı rast gəlinən bir haldır, seçimdir. İnsan kimin köləsi, qulu, əsiridir, kimin və nəyin qarşısında baş əyir - onun hər an diqqət yetirməli olduğu bir mövzudur. Uca Allaha tabe edir özünü, yoxsa insanlara? Uca Allahın buyuruqları ilə hərəkət edir, yoxsa öz iradəsini bu və digər nəsnələrə tabe etdirib?! «Allah nə deyər»lə iş görür, yoxsa «insanlar nə deyər»lə?! İnsanların nə deməsinə məğlub olursa, bu şəxsdə izzətliliklə bağlı bir mövzu yoxdur. Amma Allah deyənlə getsə, nicata çatar.

Hərədə bir «bəs edən mövzu» var. Kimin üçünsə lbəs edən mövzu» odur ki, bunun barədə desinlər dahidir, bunun kimisi yoxdur. Digəri üçün pulluluq «bəs edən mövzu»dur. Üçüncü üçün məqam və hakimiyyətlilik «bəs edən mövzu»dur. Başqası var ki, onu qəddar, amansız, rəhmsiz saysalar, xoşuna gəlir. Amma adam var ki, «bəs edən mövzu»su Allaha xoş olan əməlləri yerinə yetirmək, Allahın istədiyi həyat tərzi sürməkdir. Həzrət Əli (ə) öyrədir ki, əslində bəs edən, kifayət edən mövzu - yalnız Allaha bəndəlikdir. İnsan Allahdan başqa hər kimsə və hər nəsə qarşısında baş əysə, aşağılanar. Amma Allaha bəndəliyə nə qədər yaxın olsa, gerçək bəndəliyə nə qədər qol qoysa, o qədər əziz olar.

Hərənin bir fəxr illəti var. Kimsə hansısa ailədə doğulmasını, kimsə hansısa məkana mənsub olmasını, kimsə hansısa məqama malik olmasını fəxr etmək üçün kifayət qədər əsas sayır. Amma dinimiz, Həzrət Peyğəmbər (s) və Əhli-Beyt (ə) məntiqi öyrədir ki, fəxr etmək üçün əsas, Allahın Rəbliyini qəbul edilməsindən və Onun hər an bəndəni hər mənada vücudla təmin etməsinin fərqinə varmasından yaranır. Bu Rəbbliliyi qəbul etməkdən irəli gələn təklif və vəzifələrə məsuliyyətlə yanaşmaqdan yarana bilər əslində sözügedən kifayətlilik.

## O, zatən qənidir

İnsan Allaha bəndə olsa, bundan böyük izzət yoxdur. Allah insana Sahib, Malik, Qəyyum, Rəbb olsa, bundan uca iftixar yoxdur. İmam Cəfər Sadiqin (ə) buyuruşu vardır: «Bir kəs ki, Allah dərgahında təzəllül və xuzu etməyə, izzət və böyüklüyü yoxdur və o kəs ki, Allah dərgahında təvazö etməyə - ucalığı, aliliyi yoxdur».

İnsan bəzən çaşa bilər. Müəyyən işlər görə bilər ki, özünə böyük gələ bilər. Özünü Allahın yanında vəzifəsini yerinə yetirmiş görə bilər. Amma bilinməlidir ki, Allah qarşısında təzəllüldən savayı izzət yoxdur.

Bəhsin əvvəlində dedik ki, izzət Allaha, Rəsuluna (s), iman əhlinə məxsusdur. Burada bir mühüm nöqtəyə diqqət olunmalıdır ki, Allahın izzəti ilə yaranmışların izzəti fərqlidir. Allah Təala - izzətin özüdür. Sözün əsil mənasında, ən tam və ali mənasında izzət yalnız Allaha məxsusdur. Bütün yaradılış Onun qarşısında zəlil və məğlubdur. Gerçək qalib, gerçək əziz Odur.

Bu, ondan irəli gəlir ki, Allah - zatən qənidir. Əzizlik Onun mübarək zatındadır. Bütün yaradılış aləmi Ondan asılıdır və Onun fəqiridir, Ona möhtacdır.

Yaranmışın isə izzəti tam başqa təbiətlidir. Yaranmış nə zaman çatır izzətə? O vaxt ki, gerçək İzzət Mənbəyinə, əsil İzzət Sahibinə bağlansın. İzzətlə bağlı gətirilən ayədə də aydınlaşdırılır ki, izzət - Allaha məxsusdur, Onun Rəsuluna (s) məxsusdur, iman sahiblərinə məxsusdur.

Diqqət edək, bir Rəsuldan söhbət gedir ki, Onundur. İman gətirmişlər hansıdır? - Ona iman gətirənlər. Ümumi insanlar, ümumi müsəlmanlar deyilmir. Deyilir - həqiqi iman gətirənlərə, gerçəkdə Ona iman gətirənlərə izzət aiddir. Onun bəndələri izzətə malik ola bilərlər. Kim ki, İlahi rəngə bürünüb. Özünü Rəbbinə həqiqətən də təslim edib.

Amma kim ki, Onunku olmur, ya özününkü, öz nəfsininki olur, ya kiminkisə olur - burada izzət axtarmağa dəyməz. Yalnız Onun qulu, Onun təslimi, Onun bəndəsi izzətə sahib olar, əzizliyə çatar.

## Bəndə olmaq nədir?

Bəzən «Allaha bəndəlik» ifadəsi kimisə bir qədər darıxdıra bilir. Onu rəhbər tutaraq ki, insan heç kəsin qulu olmamalıdır, insan azad doğulmuşdur - düşünür ki, yersizdir bu ifadələri işlətmək. Bu, məsələni tam dərinliklə anlamamaqdan irəli gəlir. Yersiz olanı - Allahdan qeyrisinə kölə olmaqdır. Rəbdən başqasına nökərlik etməkdir. Allahın bəndəsi, qulu olmaq, hər mənada Ona məxsus olmaq isə insana ancaq ucalıq gətirir. Allaha bəndəlik - aliliyin, üstünlüyün eynidir.

Kölə olmaq mahiyyətcə nədir? Kölə olduğunun bütün buyuruşlarını qeyd-şərtsiz yerinə yetirmək. Sahibinin iradəsini özünkündən üstün bilmək. Onun iradəsinə tabe olmaq. İndi kimdir kölə - malın, pulun, şəhvətin, qəzəbin, kinin, vəzifənin, tərifin, şan-şöhrətin yedəyində gedən, yaxud hətta bunun özünün deyil, buna cəhdin, səyin, canatmanın qulu olan, yoxsa könüllü olaraq, iradəvi şəkildə, öz missiyasını yerinə yetirmək üçün, yaradılışın fəlsəfəsinə uyğun gəlmək üçün, kamala çatmaq üçün öz iradəsini Mütləq Kamalın iradəsinə tabe edən? Öz yaradılışının mahiyyətinə xəyanət edərək müxtəlif müvəqqəti və ötəri şeylər üçün nələrdən keçən adam hara, Həqiqi Ruzu Verənə, Rəhimlilərin ən Rəhimlisinə, Qəyyum və Himayəçiyə öz əməllərini uyğun edən hara?!

Əqli olan bilir ki, hər an mövcudiyyət alır Rəbbindən. Bir anlıq Haqq Təala nəzərini çəksə insandan, bir an vücud, varolma verməsə ona - o, yox olar. Əqli olan bilir ki, hər nə ki, onda var - həqiqi mahiyyətə malik deyil, nəyinsə inikasıdır. Onun bütün varidatı qeyri-sabit və müvəqqəti səciyyə daşıyır, bütün duyğuları nəyinsə törəməsidir. Belə olan halda, əsil mənbəyə müraciət etmək məntiqi və əqlani olmazmı? Əsil mənbədən istəmək və gözləmək daha rasional hərəkət olmazmı?

Qurani-Kərimin 35-ci surəsinin 16-cı ayəsində buyurulur: **«Ey insanlar! Sizlər Allaha fəqirsiniz, (Allaha yönəli ehtiyaclılarsınız), və Allahdır ki, həqiqi qənilik, həmidlik Ona aiddir, (Ona məxsusdur)».**

Əgər insan həqiqətən izzət ardınca gedir, izzəti arayırsa - həqiqi izzət sahibinə müraciət etməlidir. İnsan özü üçün gərək müəyyən etsin ki, həqiqi izzətin mənbəyi Allahdır və yalnız Allaha bağlılıqla, Allaha müraciətlə, Allahın lütfü və inayətilə bir yerə gəlib çatar ki, orada izzət tapar. Allah Təala bu müqəddəratı cəmi insanlara nəsib etsin!

**Allahım! İnsanlara doğru seçim etməkdə yardım et!**

**Allahım! Bəşəriyyəti Özün fitnələrdən saxla!**

**Allahım! Müşkülü olanların müşküllərini Özün həll et!**

**Allahım! Vətəni və ümməti qoru, bəşəriyyəti iblisin (lən) torundan xilas et!**

**Allahım! Həzrət Peyğəmbər (s) və Əhli-Beytinin (ə) həqiqi davamçılarından olmağı cəmi iman əhlinə qismət et!**

**Allahım o kəs ki, gözlər onun intizarındadır - Həzrət Mehdi Sahib-əz-Zamanın (ə.f.) zühurunu təcili et! Amin!**

YENİ MÜSAVAT
N 200 (6521) 9 sentyabr 2016

# Xarici şirkətlər Azərbaycanı niyə tərk edir?

## Səbəb təkcə neftlə bağlı deyil, qeyri-neft sektoruna aid şirkətlər də nümayəndəliklərini bağlayır...

**Xarici şirkətlərin Azərbaycandan getməsi tendensiyası güclənib. Son olaraq ölkədə 3 xarici şirkətin nümayəndəliyi ləğv olunub. Bu barədə "Report" Vergilər Nazirliyinə istinadən xəbər verib. Nümayəndəliyini bağlayan şirkətlərdən biri "China Geo-Engineering Corporation İnternational" MMC-dir. Ölkəni tərk edən 2-ci şirkət Böyük Britaniyaya məxsus "Cadbury CIS B.V."-dir. Bundan başqa, Türkiyəyə məxsus "Elit" MMC Azərbaycanda filialının ləğv olunduğunu elan edib.**




Ekspertlər bildirirlər ki, şirkətlər Azərbaycanı tərk etməklə əlavə xərclərini azaltmağa çalışırlar. **Ekspert Elşad Məmmədov** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, xarici şirkətlərin ölkəni tərk etməsi ilk növbədə mövcud iqtisadi problemlərin ölkədə işgüzar fəallığa təsiri ilə izah olunur. Belə ki, iqtisadi nəzəriyyəyə görə, hər hansı iqtisadi sistemin aparıcı qüvvəsi olan elementdəki artım və geriləmə, tək həmin elementin göstəricilərinə deyil, bütövlükdə sistemə öz təsirini edir. Və bu multiplikativ təsir əslində həmin elementin sistemdəki rolu ilə düz mütənasibdir. Bu, o deməkdir ki, neft sektorunun ölkə iqtisadiyyatında fövqəladə xüsusi çəkiyə malik olması, son nəticədə həmin sektorda mövcud olan böhranın da bütövlükdə iqtisadi sistemə yayılacağını proqnozlaşdırmaq lazım idi. Ölkədə qeyri-neft sektorundakı son aylarda müşahidə olunan problemlərin bir hissəsinin səbəbləri məhz bundadır. Təsadüfi deyil ki, ölkəni son vaxtlar tərk edən xarici şirkətlərin xeyli hissəsi qeyri-neft sektoruna aiddir".

**Onun sözlərinə görə, bununla yanaşı, iqtisadi blokun son aylarda maliyyə sabitliyinin möhkəmlənməsi məqsədi ilə həyata keçirdiyi sərt monetar siyasətin yalnız qısamüddətli iqtisadi effekti ola bilər:** "Daha uzunmüddətli perspektivdə sərt monetar siyasət dünyanın heç bir ölkəsində iqtisadi artıma və işgüzar fəallığın yüksəlməsinə səbəb olmayıb. Sərt monetar siyasətin ancaq dayanıqlı, diversifikasiya səviyyəsinin yüksək olduğu, formalaşmış real və maliyyə sektorlarına malik olan iqtisadi sistemlərdə nisbətən uzunmüddətli effekt verməsi mümkün olur. Bu baxımdan, fikrimcə, sərt monetar siyasət ölkədə digər makroiqtisadi fəsadlarla yanaşı, həm də ölkədə işgüzar fəallığın, xarici investisiyaların və beləliklə də ölkəyə daxil olan kapital axınının azalması ilə nəticələnə bilər. Fikrimcə, bütün bu məsələlər də hökumətin iqtisadi bloku tərəfindən dəyərləndirilməli və makroiqtisadi səviyyədə idarəetmə qərarlarının qəbul edilməsində nəzərə alınmalıdır. Əks halda, aşağıdakı arzuolunmaz vəziyyətin formalaşması təhlükəsi reallaşa bilər ki, iqtisadi blokun tətbiq etdiyi sərt monetar siyasət işgüzar fəallığın zəifləməsi, ölkəyə kapital axınının azalması ilə nəticələnsin".

**Ekspert Fikrət Yusifov isə musavat.com-a deyib ki, hansısa bir şirkətin ölkəni tərk etməsi onun öz istəyi ilə mümkündür:** "Bu gün Azərbaycan hökuməti biznes mühitinin maksimum münbitləşdirilməsi məqsədi ilə çox mühüm addımlar atır. Yaranmış şəraitdə həm yerli və həm də xarici iş adamlarının normal fəaliyyəti üçün geniş imkanlar mövcuddur. Hansısa kompaniyaların Azərbaycandan getməsinə normal baxmaq lazımdır. Kimsə fəaliyyətini bir başqa yerdə və başqa bir şəraitdə davam etdirmək istəyirsə, bu onun öz seçimidir. Müəyyən kompaniyalar ölkədən getdiyi kimi bir çox kompaniyalar da iş qurmaq üçün Azərbaycana gəlir".

Qeyd edək ki, ölkədən xeyli sayda böyük şirkətlər, o cümlədən "Shell", "Samsung", "Nestle" də gedib. Ekspertlərin sözlərinə görə, əsas səbəb ölkədəki ümumi investisiya mühiti ilə bağlıdır. Yəni bu, Azərbaycanda iş şəraitinin, biznes şəraitinin digər ölkələrə nisbətən daha səmərəsiz olmasından irəli gəlir.

❑ **Röya RƏFİYEVA**



# Azərbaycanda böyrək xəstələrinin sayı artıb və gəncləşib

## Adil Qeybulla: "Bu, oturaq həyat tərzi, içməli su və ərzaq problemi ilə sıx bağlıdır"

**Azərbaycanda bir sıra xəstəliklər sürətlə artır və gəncləşir. Bunlardan biri də böyrək xəstəlikləridir. Hər 100 min insandan təxminən 50-si böyrəklə bağlı problem yaşayır. Bu xəstələrin təxminən yarısı hemodializ müalicəsi qəbul edir. Ölkəmizdə 8-i Bakı, 25-i regionlarda olmaqla, 33 hemodializ mərkəzi var. 2634 xəstə dövlət hesabına hemodializə cəlb olunur. 2006-cı ildə Azərbaycanda 238 nəfər hemodializ xəstəsi var idisə, bu gün həmin xəstələrin sayı 2634 nəfərdir. Bu, təxminən 10 dəfə artım deməkdir.**

Respublika Uroloji Xəstəxanasının böyrək nəqli şöbəsinin müdiri Şahlar Nəsirov sentyabrın 7-də böyrək xəstəliklərinə həsr olunmuş tədbirdə çıxış edərək böyrək xəstəliyinin gəncləşdiyini deyib: "İl ərzində uşaq urologiyası şöbəsinə 2100-dən çox xəstə müraciət edib. Bu gün Azərbaycanda 100-dən çox xəstə böyrək köçürülməsindən ötrü növbə gözləyir. "Bu xəstəxanada ildə 1200-ə yaxın cərrahiyyə əməliyyatı edilir. Ötən il 500 uşaq əməliyyat olunub. İl ərzində uşaq urologiyası şöbəsinə 2100-dən çox xəstə müraciət edib".

Hemodializ şöbəsinin müdiri Fariz Babayev isə bildirib ki, böyrək xəstəlikləri anadangəlmə və sonradan qazanılmış olur. Anadangəlmə xəstəliklər irsən keçir.

Ölkədə böyrək ağrıları kəskinləşən xəstələrin sayı 10 minə yaxındır. Onların 3100-ü böyrək çatışmazlığı diaqnozu ilə hemodializ seanslarına cəlb olunub. Onlar arasında 15 yaşına qədər 6 uşaq var. Ən kiçik uşaq isə 6 yaşındadır".

Hazırda Azərbaycanda böyrək köçürülən xəstələrin sayının 732 nəfər olduğu deyilir. Dövlət onların dərmanla təmin olunmasını öz üzərinə götürüb.

Maraqlıdır, böyrək xəstəliklərinin bu qədər artmasına səbəb nədir; qida, su, nəmişlik, yoxsa başqa səbəblər?

**Tibb elmləri doktoru, professor Adil Qeybulla yalnız böyrək deyil, bütün xəstəliklərdə artım olduğunu dedi:** "Əslində böyrək xəstələrinin artması oturaq həyat tərzi, içməli su, ərzaq problemi ilə sıx bağlıdır. Bu gün xəstəliklərin böyük əksəriyyəti qidalanma tərzi, hətta hipodinamiya ilə bağlıdır. İnsanlar çox qida qəbul edib, az hərəkət edirlər. Bədəndə enerjinin yanma prosesi getmir və daxil olan kalori ilə sərf olunan kalori arasında disbalans müəyyən müddətdən sonra maddələr mübadiləsinin pozulmasına, müxtəlif orqanların çökməsinə, böyrək daşına səbəb olur. Böyrəklərin özü də uzun müddət oturaq həyat, tərzi, qeyri-aktiv həyat, hipodinamiya durğunluğunun əmələ gəlməsinə səbəb olur. Mayelərin axan yerində olan durğunluq çöküntünün, daşların, iltihab prosesinin əmələ gəlməsinə şərait yaradır. Böyrək xəstəliyinin əmələ gəlmə səbəbləri adətən bundan ibarətdir. Ona görə də insanlar az qida qəbul etməli, çox hərəkət etməli, aktiv olmalıdırlar. Nə qədər ki, bunlara riayət olunmayacaq, xəstəliklərə səbəb olacaq".

❑ **Günel MANAFLI**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Təbib Darya xanım**

Onurğa yırtığı, osteoxandroz, sağalmaz yaralar, yanıqlar, uzun müddət yataqdan sonra əmələ gələn yaralar, diabetdə trafik xoralar, varikoz genişlənmələr və digər xəstəlikləri cərrahi müdaxiləsiz, xüsusi məlhəmlərlə və xüsusi metodika ilə inyeksiyalarla müalicə edirəm.

**Tel: 051- 634- 40-01**

**Elan**

**Qəbələdə bağ sahibi olmaq istəyənlərin nəzərinə!**
**Qəbələnin gözəl ərazisi olan Vəndam kəndində yola yaxın, dağın ətəyində, meyvə ağacları ilə dolu 54 sot torpaq sahəsi satılır. Hissə-hissə də (6 sot) almaq mümkündür.**
**Əlaqə telefonu: (050) 371-01-60, (070) 335-90-15**

YENİ MÜSAVAT
N 200 (6521) 9 sentyabr 2016

# Generalın məhkəmə müəmması

**Məlum olduğu kimi, sentyabrın 20-də Bakı Hərbi Məhkəməsində ləğv olunmuş MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarovun məhkəməsi keçiriləcək. Məhkəmənin açıq və ya qapalı keçiriləcəyi haqda hələ ki rəsmi məlumat verilməyib. Lakin bir çox iddialara görə, məhkəmə prosesi əsasən qapalı olacaq.**

Maraqlıdır, bu cür məhkəmələrin ictimaiyyət üçün açıq olmaması nə dərəcədə doğrudur? Hüquq müdafiəçilərindən kimlər sabiq MTN generalının məhkəməsində iştirak etməyi düşünür?

Suallara aydınlıq gətirmək üçün bir neçə hüquq müdafiəçisinin rəyini öyrənməyə çalışdıq.

**Neftçilərin Hüquqlarını Müdafiə Komitəsinin sədri Mirvari Qəhrəmanlı məhkəmənin qapalı keçirilməsinə bu cür münasibət bildirdi:** "Bu, hərbi məhkəmədir. Mətbuatdan izlədiyim qədər hökumət bunun kimi bir çox məhkəmələri qapalı keçirir. Məsələn, bizim təşkilata sanksiyalar tətbiq edilmişdi, bununla bağlı keçirilən məhkəmə qapalı oldu və heç kimi buraxmadılar. Burda da bir şey yox idi, sadəcə, bank hesabları bağlanmışdı. Əslində bu cür məhkəmələrdə ictimaiyyət daha çox iştirak etməli, məlumat almalıdır".

**Mirvari Qəhrəmanlı məhkəmə prosesini izləmək istədiyini vurğuladı:** "Məhkəmə açıq keçirilsə, təbii ki, gedib iştirak edərəm. Ona görə ki, o, mənim 25 ildən çox işlədiyim sahəyə təxminən 2012-2013-cü illərdə kuratorluq edib. Bu səbəbdən məhkəmə prosesini izləmək mənim üçün çox maraqlı olardı. Məhkəmə proseslərinin izlənilməsinə və ona hüququ rəy verilməsinə ehtiyac var.

Əlbəttə ki, imkan versəydilər, oturub kənardan məhkəməni izləyərdim".

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu isə məhkəmənin qapalı keçirilməsinin daha uyğun olduğunu bildirdi:** "Bilirsiz ki, bu, ləğv olunmuş nazirlikdir, burada dövlət sirri ola bilər. Yəqin ki, pul götürməkdən başqa dövlət sirrini satıb və ya satmadıqları haqda suallar da veriləcək. Ona görə də hesab edirəm ki, məhkəmənin qapalı keçirilməsi düzgündür".

**Novella Cəfəroğlu Akif Çovdarovun məhkəməsində iştirak etmək istəmədiyini bildirdi, səbəbinə isə bu cür aydınlıq gətirdi:** "Birinci ona görə ki, məhkəmə qapalı olacaq və bizim iştirakımıza icazə verilməyəcək. İkincisi də əgər ona qarşı təzyiqlər olsa, döyülüb-söyülsə, onda hüquq müdafiəçisi kimi onu müdafiə edə bilərik. Amma Çovdarov o qədər insana əzab verib ki.... Onun Pərviz Həşimlinin evinə, uşağının yanına silah ilə getməsini heç vaxt yadımdan çıxartmaram. Ona görə də nə onun məhkəməsinə gedirik, nə də müdafiəsinə baxırıq".

**İnsan Hüquqları üzrə Birgə İşçi Qrupun üzvü, hüquq müdafiəçisi Səadət Bənəniyarlı:** "Hesab edirəm ki, məhkəmənin qapalı keçirilməsinə heç bir əsas yoxdur. Çünki burda dövlət sirri açılmır və kifayət qədər mətbuat da yazılar yazıb. Məhkəmənin əlamətdar günə salınması isə təsadüfidir, fikrimcə, hakim günü təyin edərkən bu məsələ nəzərə alınmayıb. Bunun nə ilə əlaqələndirilməsində məntiq görmürəm".

Xatırladaq ki, ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin həbsdə olan sabiq rəisi, general-mayor Akif Çovdarov və onunla birgə tutulan digər 4 sabiq MTN-çinin işi üzrə hazırlıq iclası sentyabrın 20-də Sabunçu Rayon Məhkəməsinin inzibati binasında keçiriləcək. Cinayət işinə Bakı Hərbi Məhkəməsinin sədri Həbib Həsənovun sədrliyi, hakimlər Elbəy Allahverdiyev və Müslüm Əliyevin iştirakı ilə baxılacaq.

❑ Xalidə GƏRAY



**Mirvari Qəhrəmanlı:** "Əslində bu cür məhkəmələrdə ictimaiyyət daha çox iştirak etməlidir"



**Novella Cəfəroğlu:** "Məhkəmənin qapalı keçirilməsi düzgündür"



**Səadət Bənəniyarlı:** "Məhkəmənin qapalı keçirilməsinə heç bir əsas yoxdur"

## Bakıda iki nəfər su quyusunda boğularaq ölüb

**Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə Bakının Sabunçu rayonunda dərinliyi təxminən 20 m olan su quyusuna 2 nəfərin düşməsi və orada köməksiz vəziyyətdə qalması barədə məlumat daxil olub.**

FHN-in mətbuat xidməti xəbər verir ki, nazirliyin Xüsusi Riskli Xilasetmə Xidmətinin və Dövlət Sularda Xilasetmə Xidmətinin xilasediciləri dərhal hadisə yerinə cəlb olunaraq 1974-cü il təvəllüdlü İbrahimov Elşad Arif oğlunun və 1961-ci il təvəllüdlü Doktorov Anatoliy Dmitriyeviçin meyitlərini su quyusundan çıxararaq aidiyyəti üzrə təhvil veriblər.

## Bələdiyyə sədrinin qatilinin məhkəmə istintaqı başa çatdı



Vəsilə Əbilhəsənova

**Sentyabrın 8-də Bakı Ağır Cinayətlər Məhkəməsində Saray qəsəbəsi bələdiyyəsinin sədri Vəsilə Əbilhəsənovanı və ərini qətlə yetirməkdə təqsirləndirilən Fədai Hüseynovun cinayət işi üzrə məhkəmə davam edib. Lent.az-ın məlumatına görə, hakim Fikrət Qəribovun sədrliyi ilə keçirilən prosesdə şahidlər ifadə verib. Prosesdə şahid qismində dindirilən Saməddin Şabanov deyib ki, onun Saray qəsəbəsində 1 hektardan çox torpaq sahəsi olub:**

**"Vəsilə xanım məni yanına çağırdı. Həmin torpağı satıb-satmadığımı soruşdu. Mən də ailə üzvlərimlə məsləhətləşib torpaq sahəsini satmaq fikrinə gəldim. Sotunu 500 manatdan razılaşdıq. Vəsilə xanım 60 min manatdan çox pul göndərdi. Mən də notariusda torpaq sahəsini bələdiyyədə şöbə müdiri işləyən Ziyadxan Məmmədovun adına rəsmiləşdirdim. Sonra olanlardan xəbərsizəm". Bələdiyyənin Təsərrüfat şöbəsinin müdiri Ziytadxan Məmmədov da ifadə verib. O bildirib ki, bələdiyyə sədri və təqsirləndirilən şəxslə münasibətləri yaxşı olub: "Bir gün Vəsilə xanım çağırıb dedi ki, mənim adıma 1 hektardan çox torpaq sahəsi keçiriləcək. Mən bunun qanuni olub-olmamasını soruşdum. O isə tam qanuni olduğunu və narahat olmamağımı dedi. Dedi ki, sən subay olduğun üçün alış-satış etməyin daha rahatdır. Mən də bununla razılaşdım və sənədlərə qol çəkdim. Torpaqlar satılanda Vəsilə xanım çağırırdı, gedib sənədlərə qol çəkirdim. Qiymətlərdən və pullardan xəbərim olmayıb. Hadisədən sonra bələdiyyədən işdən çıxdım. İndi adıma həmin torpaqlardan 50 sotu qalır".**

Hakim şahidə xəbərdarlıq edib ki, bu məsələ ilə bağlı cinayət işi olduğundan həmin torpaq sahəsinin satışı qadağan olub. Prosesdə Fədai Hüseynovun qohumu Seymur Məmmədov ifadə verib. O qeyd edib ki, istintaqa torpaq sahələrinin alqı-satqısı ilə bağlı çağırılıb: "Mən o zaman bələdiyyədə tikinti şöbəsinin müdiri olmuşam. Özüm də Saraydan 30 sot torpaq almaq üçün Vəsilə xanıma 42 min 500 manat pul vermişəm. Həmin torpaq hərraca çıxarılacaqdı. Lakin sonradan pulum da qaytarılmadı". Hakim bildirib ki, iş üzrə 38 şahiddən 32-si dindirilib. Digər şahidlərin isə istintaqa verdiyi ifadələr qəbul edilib. Hakim məhkəmə istintaqının yekunlaşdığını elan edib. Dövlət ittihamçısı Fərid Nağıyev çıxış üçün vaxt istəyib.

Məhkəmə prosesi 22 sentyabrda davam edəcək. Qeyd edək ki, qətl ötən ilin iyul ayının 8-də Saray qəsəbəsində baş verib. Bələdiyyə sədri, 39 yaşlı V.Əbilhəsənova və həyat yoldaşı V.Əbilhəsənov amansızlıqla qətlə yetirilib. Araşdırmalar zamanı qətlin F.Hüseynov tərəfindən törədildiyi məlum olub. 35 yaşlı F.Hüseynov ailəyə çox yaxın şəxs olub. Ev və torpaq alqı-satqısı ilə məşğul olan F.Hüseynov gecə saatlarında mərhumların evinə gəlib və hələlik dəqiqləşməmiş səbəblərdən mübahisə yaranıb. Mübahisə zəminində o, V.Əbilhəsənovanı kəsici, onun həyat yoldaşını isə odlu silahla qətlə yetirib.

# Ali Məhkəmə ANS-in məhkəməsini təxirə saldı

### Xəstə olduğu deyilən Mirşahin Ağayev sağaldı və məhkəmə prosesində iştirak etdi

**Sentyabrın 8-də ANS Müstəqil Yayım və Media Şirkətinin lisenziyasının ləğvi barədə Bakı Apelyasiya Məhkəməsinin qərarından Ali Məhkəməyə verdiyi kasasiya şikayəti üzrə məhkəmə prosesi keçirilib.**

Musavat.com-un prosesdə iştirak edən əməkdaşının məlumatına görə, hakim Sevda Hüseynovanın sədrliyi ilə keçirilən prosesdə hər iki tərəfin nümayəndələrinin orderlərinin olub-olmaması müəyyənləşdirilib və iş icraata götürülüb.

Məhkəmə prosesi 15 sentyabr saat 12:00-a təyin olunub.

**Daha sonra jurnalistlərə açıqlama verən şirkətin prezidenti Vahid Mustafayev bildirib ki, prezident, Ali Baş Komandan İlham Əliyevə inanırlar və nəticənin yaxşı olacağına ümid edirlər:** "Biz də öz növbəmizdə bu məsələni hüquqi yolla həll etməyə çalışırıq".



**Vahid Mustafayev prosesləri işıqlandırdıqları üçün jurnalistlərə təşəkkürünü də bildirib:** "Gördüyünüz kimi, bütün ANS-in əməkdaşları bir nəfər kimi bura yığışıb. Ona görə ki, ANS bir kollektiv olaraq, Ali Məhkəmənin bu uzanan məsələ üzrə ədalətli qərar qəbul edəcəyinə və ANS-in öz yayımını bərpa edəcəyinə inanır. Mən siyasətçi deyiləm, əsgərəm və Ali Baş Komandana tabeyəm. O isə bir prezident olaraq ölkədə qanunlar və konstitusionallığın təminatçısıdır".

Xatırladaq ki, MTRŞ Türkiyə ilə Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətlərinin pozulmasına yönəlmiş təxribatın qarşısını almaq, açıq şəkildə terrorizmin təbliğatına yol verməmək məqsədilə, Azərbaycan Respublikası Baş Prokurorluğunun 18 iyul 2016-cı il tarixli müraciətini, "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun 11, 23, 32-ci maddələrinin tələblərini rəhbər tutaraq, "ANS Müstəqil Yayım və Media" şirkətinin yayımının 18 iyul 2016-cı il tarixdən saat 18:30-dan etibarən 1 ay müddətinə dayandırılması barədə qərar qəbul edib.

Eyni zamanda MTRŞ 25 oktyabr 2013-cü il tarixli TR 099 saylı xüsusi razılığın (lisenziyanın) qüvvəsinə xitam verilməsi barədə məhkəmədə iddia qaldırıb. Bakı Apelyasiya Məhkəməsində isə ANS-in lisenziyasına xitam verilməsi ilə bağlı qərar qəbul olunub.

***

Bir gün öncə isə bəzi saytlarda "Mirşahin Ağayev ağır xəstəliyə tutulub" başlığı ilə yazı dərc edilmişdi. Məlumatda ANS-in baş redaktorunun hansı xəstəliyə tutulduğu qeyd olunmasa da, bildirilirdi ki, o, bizim.info saytının əməkdaşına açıqlamasında zorla danışdığını, vəziyyətinin ağır olduğunu deyib. Məlumat mətbuat orqanlarında yayılan andan diqqət çəkərək ictimaiyyətdə, sosial şəbəkələrdə müzakirə mövzusuna çevrildi. Bəziləri jurnalistin işsizlik sindiromu yaşadığını, ağır depressiyaya düşdüyünü, uzun-uzadı məhkəmə proseslərindən bitib-tükəndiyini, digərləri isə son olaylar üzündən ağır ürək xəstəliyinə düçar olduğunu iddia etdi. Bu da heç də əsassız deyil.

Məlum olduğu kimi ANS-in vitse-prezidenti Mirşahin Ağayev hələ bu ilin yanvarında ürəyində yaranan ciddi problemlər üzündən təcili olaraq Mərkəzi Klinik Xəstəxanaya yerləşdirilmişdi. ANS Şirkətlər Qrupu prezidentinin media məsələləri üzrə müşaviri Mais Məmmədov da bu faktın doğru olduğunu təsdiqləmişdi...

İndi də onun ürək xəstəliyindən əziyyət çəkdiyini düşünənlər çoxdur. İddiaya görə, ANS-in qəfildən bağlanılması, bir-birinin ardınca keçirilən, tez-tez təxirə salınan məhkəmə prosesləri, gərgin çıxışlar jurnalistin səhhətində ciddi problemlər yaranmasını qaçılmaz edir...

Haqqında yayılan şayiələrlə bağlı Mirşahin Ağayevin özündən rəy almağa çalışdıq. Lakin telefon zənglərimiz cavabsız qaldı. Ancaq o, sentyabrın 8-də keçirilən ANS şirkətinin lisenziyasının ləğvi barədə Bakı Apelyasiya Məhkəməsinin qərarından Ali Məhkəməyə verdiyi kasasiya şikayəti üzrə keçirilən məhkəmə prosesində iştirak edib. Bu barədə məhkəmədə iştirak edən əməkdaşımız məlumat verib. Əməkdaşımızın sözlərinə görə, onun səhhətində problem olduğu müşahidə olunmayıb.

❑ Xalidə GƏRAY

YENİ MÜSAVAT

Son səhifə

N 200 (6521) 9 sentyabr 2016



# Borcunu ödəmədi deyə... yedilər

**Yaponiyada bir kişini 2009-cu ildə qətlə yetirən, sonra onu şaqqalayıb qızardan və yeyən, ət parçalarının bir hissəsini də sosiska edərək soyuducuda saxlayan şəxslərin adları açıqlanıb. Kazukiyi Kobayaşini öldürən, şaqqalayan və yeyən şəxslər 34 yaşlı Tasuki Şimaoka, 30 yaşıl Kyta Yoşida və 40 yaşlı Koji Kavamuradır. Tokio polisindən verilən məlumata görə, onlar Kobayaşini şaqqalayandan sonra ölkənin şimalındakı Niqata prefekturasındakı kiçik qəsəbələrdən birindəki soyuducu anbarda, buz kamerasında saxlayıblar.**

Onlar qurbanlarının ətini qızardaraq yeyiblər. Üç manyak cinayətkar 2009-cu ildə borcunu ödəyə bilməyən 36 yaşlı kişini çəkiclə başından vuraraq qətlə yetirəndən sonra şaqqalayıb və tikələrə bölündən sonra plastik qablara yığaraq soyuduculu anbarda gizlədib. 3 il soyuducu kamerada saxlanmış cəsəd tikələrini üç cinayətkar bu yaxınlarda kameradan çıxarıb, doğrayıb və manqalda qızardaraq yeyib.

Daha sonra onlar yerdə qalan "ət"in xarab olmaması üçün ondan sosiska hazırlayıb yenidən soyuducu kameraya qoyublar.

Polis manyakları həbs edib. Onlardan biri günahsız olduğunu deyib.

# Anaların intuisiyası... yox imiş

**Analıq intuisiyası deyilən şey, sən demə, əfsanə imiş. Saint-Etienne Universitetinin araşdırmaçılarına görə, ağlayan bir körpənin problemini anlamaq üçün valideynin cinsiyyəti heç bir önəm daşımır. Bu məsələdə əsas məqam onun körpəsi ilə nə qədər vaxt keçirməsidir.**



Araşdırmanı həyata keçirən professor Nikolas Mathevon 58 ilə 153 günlük arasında 29 körpənin ağlamasını qeydə alıb. Uşaqların 15-i Fransadan, 14-ü isə Demokratik Konqo Cümhuriyyətindən idi. Uşaqların Afrika və Fransadan seçilməsinin səbəbi isə mədəniyyətlərarası fərqlərin bu durum üzərində nə dərəcədə təsirli olub-olmadığını anlamaq idi. Ailələrə uşaqların ağlama səsini dinlədəndən sonra onlardan hansı uşağın onlarınkı olduğunu müəyyənləşdirmələri tapşırılıb. Maraqlıdır ki, nəticə etibarilə qadınların 98 faizi ağlama səsindən öz uşaqlarını müəyyənləşdirə biliblər. Amma uşaqları ilə çox vaxt keçirən ataların 90 faizi də bu məsələdə uğur qazanıb. Uşaqları ilə gündə 4 saatdan az vaxt keçirən ataların 75 faizi onların səsini tanıya bilib.

# O, evinə zibil yığır, çünki xobbisi budur

**Türkiyənin Edirnə şəhərində yaşlı bir qadının yaşadığı bina evindən 5 yük maşını zibil çıxıb. 72 yaşlı Şahsene Bozkurda aid birinci mərtəbədəki evdən pis iylər gəldiyini deyən qonşular bununla bağlı şəhər bələdiyyəsinə şikayət edib. Bələdiyyə də evin təmizlənməsi üçün mütləq məhkəmə qərarı olmasının vacibliyinə toxunub. İki il əvvəl başlanan məhkəmə prosesi məhəllə sakinlərinin lehinə nəticələnib və bələdiyyə işçiləri qapını dəmirlə açıblar. Evdən qadının daha öncə zibil yeşiyindən götürdüyü qida maddələri, geyimlər, torba, kağız kimi maddələr çıxıb. Ev dezinfeksiya olunandan sonra oradakı pişik və quşlar da heyvanlar üçün xüsusi mərkəzlərə götürülüb. Ev sahibi Bozkurdun qonşusu Hüseyin Aydoğan isə deyib ki, yaşlı qadın evində illərdir zibil yığır.**

Qonşular deyir ki, ev təmizlənsə də, yaşlı qadın bundan sonra da zibil yığmağa davam edəcək. Çünki bu, onun xobbisidir. Yaxınları onun Qocalar Evinə aparılmasının tərəfdarıdır.





# İtini tapana 650 min dollarlıq evini verəcək

**İtini itirən Çin sakini onu geri qaytaracaq adama mükafat olaraq evini təklif edib. "The Daily Mirror"un yazdığına görə, Lyu soyadlı, 70 yaşlı qadın Pekində yaşayır və artıq mükafatı barədə mətbuatda elan verib.**

Qadının evi 650 min dollar qiymətindədir. Elanın yayılmasından qısa müddət sonra 70 yaşlı it yiyəsinə çoxlu sayda telefon zəngləri daxil olub. Zəng edənlərin əksəriyyəti ya iti tapdığını, ya da harada olduğunu deyib. Onlardan əksəriyyəti yalan danışıb, bir çoxları isə başqa iti qadına öz iti kimi təqdim etməyə çalışıb. Qadının bacısı oğlu isə bəyan edib ki, dələduzların əlindən cana doyublar və buna görə də bu formada axtarışa son qoymaq niyyətindədirlər.





**QOÇ** - Astroloji göstəricilər əsasən səfərlər istiqamətində uğurlara yiyələnəcəyinizdən xəbər verir. Odur ki, maddi imkanınız olduğu təqdirdə uzaq yola hazırlaşmağa dəyər.

**BUĞA** - Məhəbbət məsələlərində uğurlara yiyələnmək üçün şanslarınız artacaq. Əgər səhv sizdədirsə, üzr istəməkdən çəkinməyin. Hər halda, ruhi yaxınlıq üçün çılğınlıqdan uzaq olmaq lazımdır.

**ƏKİZLƏR** - Münaqişəli gün olsa da, təmkin nümayiş etdirməklə sülhə nail olmaq mümkündür. Nahar ərəfəsində hisslərinizi daha bərk cilovlayın. Bu gün ulduzlar sizi varlandırmağa çalışacaq.

**XƏRÇƏNG** - İkitərəfli əməkdaşlığa başlamaq üçün gözəl ərəfədir. Bu səbəbdən də öhdənizə düşən işləri asanlıqla yerinə yetirə biləcəksiniz. Pul məsələlərində isə riskə getməyin.

**ŞİR** - Əməlli-başlı varlanma ehtimalınız var. Bunun üçün ilk növbədə məsuliyyətinizi dərk etməli və aldığınız dəvətlərə razılıq verməlisiniz. Nahardan sonra büdcənizdə artım mümkündür.

**QIZ** - Ətrafınızda olan insanlarla daha səmimi olmağa çalışın. Elə edin ki, hamının rəğbət mərkəzində olasınız. Bu cəhət daha çox sevgi və qohumluq tellərinə şamildir. Aktivliyinizi artırın.

**TƏRƏZİ** - Qərar çıxararkən təcrübəli insanların məsləhətlərindən bəhrələnə bilsəniz, gün ərzində narahatçılığınız olmayacaq. Saat 17-dən sonra yeni təklif və ya dəvətlər alacağınız gözlənilir.

**ƏQRƏB** - Büdcənizlə bağlı vəziyyət xeyrinizə olsa da, səhhətinizdə problem gözlənilir. Qan-damar sistemində, eləcə də qida məsələlərində diqqətli olun. Buna xatir münaqişələrdən qaçın.

**OXATAN** - Mənfi enerjili Ay bürcünüzdə olduğu üçün ümumi əhvalınız aşağı ola bilər. Amma özünüzü tənzimləyə və məqsədinizə yetişə bilərsiniz. Ailə üzvlərinizlə mehriban və səmimi davranın.

**OĞLAQ** - Əsas vaxtınızı iş prinsipinə yönəldin. Digər məsələlərə isə çox da aludə olmayın. Çünki işdən kənarda ciddi uğurlarınız gözlənilmir. Yersiz risklərə bugünlük son qoyun.

**SUTÖKƏN** - Çox maraqlı bir təqvim yaşayacaqsınız. Ola bilsin ki, ürəyinizcə olan bir xəbər də eşidəsiniz. Əgər imkan tapsanız, günün birinci yarısında müqəddəs yerlərə baş çəkin.

**BALIQLAR** - Şəxsi işlərinizdə əsaslı dönüş yaratmaq imkanınız var. Bu istiqamətdə sizə ətrafınızda olan səmimi və təcrübəli insanların da köməyi dəyə bilər. Heç kimi incitməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Bu vertolyot ətdən hazırlanacaq



**Başqırdıstanın Kumertau şəhərində ət məhsullarından vertolyot hazırlayacaqlar. Bu barədə lenta.ru saytı "The Urban Room"a istinadən xəbər yayıb. Belə ki, vertolyotun ərsəyə gəlməsi üçün milli reseptlər əsasında hazırlanan delikateslərdən istifadə olunacaq. Tədbirin afişasında qeyd olunub ki, o, dünyada ətdən hazırlanan ən böyük vertolyot olacaq. Yeməli vertolyot şəhərin 68 illiyi münasibətilə hazırlanır və 6 iyunda təqdim olunacaq. Vertolyotun "Ginnesin Rekordlar Kitabı"na düşəcəyi gözlənilir və arzulayan hər kəs onun dadına baxa biləcək.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750